AZƏRBAYCAN RESPUBLİKASI

Əlyazması hüququnda

AZƏRBAYCAN RESPUBLİKASINDA VƏKİLLİK: KONSTİTUSİON MÜDAFİƏ HÜQUQİ VƏ ONUN CİNAYƏT-PROSESSUAL ASPEKTLƏRİ

İxtisaslar: 5612.01 – "Cinayət prosesi, kriminalistika və məhkəmə ekspertizası; əməliyyat-axtarış fəaliyyəti"

5607.01 – "Konstitusiya hüququ; bələdiyyə hüququ"

Elm sahəsi: Hüquq elmləri

İddiaçı: **Aydın Cəmil oğlu Əliyev**

Elmlər doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın
AVTOREFERATI

Bakı – 2026

Dissertasiya işi Milli Aviasiya Akademiyasının "Hüquq" kafedrasında yerinə yetirilmişdir.

Elmi məsləhətçi: Hüquq elmləri doktoru, professor
Ayxan Xankişi oğlu Rüstəmzadə

Rəsmi opponentlər: Hüquq elmləri doktoru, professor
Fuad Musa oğlu Cavadov

Hüquq elmləri doktoru, dosent
Mübariz Həsrət oğlu Mustafaev

Hüquq elmləri doktoru, professor
Namiq Həsən oğlu Əliyev

Hüquq elmləri doktoru, professor
Arif Cəmil oğlu Quliyev

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Milli Aviasiya Akademiyasının nəzdində fəaliyyət göstərən ED 2.45 Dissertasiya şurası

Dissertasiya şurasının sədr müavini: Hüquq elmləri doktoru, professor
Firuzə Məmməd qızı Abbasova

Dissertasiya şurasının elmi katibi: Hüquq üzrə fəlsəfə doktoru
Sahil Zahir oğlu Hüseynov

Elmi seminarın sədri: Hüquq elmləri doktoru, professor
Midhəd Seyidəhməd oğlu Qəfərov

İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

Mövzunun aktuallığı və işlənmə dərəcəsi. Vəkillik institutu müstəqil hüquqi təsisat kimi həmişə cəmiyyətin inkişafının ən mühüm göstəricilərindən biri olmuşdur. Ötən əsrin sonlarında, yəni SSRİ-nin süqutundan sonra, postsovet ərazisində, o cümlədən, Azərbaycan Respublikasının siyasi, hüquqi, sosial, iqtisadi və mədəni həyatında baş vermiş ciddi dəyişikliklər ictimai həyatın bütün sahələrinə olduğu kimi insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi ilə bağlı məsələlərə də əhəmiyyətli dərəcədə təsir göstərdi. İqtisadi sistemin ifrat mərkəzləşdirilməsinin aradan qalxması, əksəriyyəti mülkiyyət sahibi olan mülki dövriyyə subyektlərinin dairəsinin əhəmiyyətli dərəcədə genişlənməsi, ticarət əlaqələrinin nəzərəçarpacaq dərəcədə canlanması, dövlətin cinayət hüquqi siyasəinin müəyyən dərəcədə dəyişməsi və s. vəkillər tərəfindən göstərilən ixtisaslı hüquqi yardıma olan tələbatın artmasına səbəb oldu. Konstitusiya ilə hər kəsin hüquq və azadlıqlara malik olduğunun, eləcə də hüquq və azadlıqlarını müdafiəsinə dövlət təminatı verildiyinin bəyan edilməsi də hüquqmüdafiə sahəsinə olan münasibətin dəyişməsini zəruri etdi. Bütün bunlar hüquqların və qanuni maraqların qorunmasına olan münasibətin dəyişməsini tələb etdi. Məhkəmə-hüquq islahatının həyata keçirilməsinə başlanılması da bu və ya digər şəkildə hüquqtətbiqetmə təcrübəsi ilə bağlı olan institutların, eləcə də, vəkilliyin təkmilləşdirilməsinin zəruri olduğunu göstərdi.

Təsadüfi deyil ki, 1999-cu ildə "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu (bundan belə, zəruri hallarda – Vəkillik haqqında Qanun) qəbul edildi. Bununla da vəkil peşəsinrin imkanlarının genişləndirilməsi, hüquq və azadlıqlara dair konstitusiya prinsiplərinin təcrübədə həyata keçirilməsinin təmin olunması istiqamətində ilkin addım atıldı. Gözlənilən növbəti addım yeni vəkillər birliyinin yaradılması və onun fəaliyyətinin təşkili ilə bağlı olmalı idi. Belə ki, vəkilliyin fəaliyyətini yeni tələblər səviyyəsində təşkil etmədən fiziki və hüquqi şəxslərə tələb olunan səbiyyədə ixtisaslı hüquqi yardımın göstərilməsi və onun effektivliyinə nail olunması mümkün deyildi. Lakin buna baxmayaraq, yeni vəkillər

kollegiyasının yaradılması anlaşılmaz səbəbdən ləngidi.

Hər kəsin hüquq və azadlıqlarının müdafiəsinə dövlət təminatının verilməsinin və hüquqi yardım almaq hüququnun Konstitusiya ilə təsbit edilməsinə baxmayaraq, "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanun 1999-cu ildə qəbul olunmuş, yeni Vəkillər Kollegiyası isə ancaq 2004-cü ilin sonlarında təsis edilmişdir. Tarixi baxımdan qısa bir müddət ərzində, yəni 2001-2022-ci illərdə həmin qanuna iyirmi altı qanunvericilik aktı ilə (onlardan beşi 2001-2004-cü illərdə, yəni hələ yeni vəkillər birliyi yaradılanadək) səksəndən çox əlavə və dəyişiklik edilmişdir. Bir sıra hallarda bu intensiv qanunvericilik fəaliyyəti və qanunun təkmilləşdirilməsi prosesi kimi qələmə verilsə də, əslində belə vəziyyət qanunun qüsurlu olması ilə bağlı olmuşdur[1].

Bütün bunlara baxmayaraq, etiraf etməliyik ki, Vəkillik haqqında Qanunun qəbul edilməsi vəkillik institutu və vəkillik fəaliyyəti ilə bağlı əvvəllər mövcud olmuş çoxsaylı problemlərin aradan qaldırılmasına səbəb olmuşdur. Lakin vəkilliyin təşkili və vəkillik fəaliyyətinin həyata keçirilməsi ilə bağlı olan bəzi problemlər, o cümlədən, qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı olanlar hələ də qalmaqdadır. Vəkilliyin və vəkillik fəaliyyətinin üzləşdiyi problemləri dəqiq müəyyən etmək və onların həlli yollarını təklif etmək günümüzün ən mühüm vəzifələrindən biridir. Odur ki, vəkilliyin və vəkillik fəaliyyətinin əsas problemlərinin tam dərk edilməsi üçün onların hərtərəfli və məqsədyönlü şəkildə öyrənilməsini zəruri hesab edirik.

Hesab edirik ki, Vəkillik haqqında Qanunun, eləcə də müvafiq qanunvericilik aktlarının müddəalarının bilavasitə təhlili mövcud problemlərin aşkar olunmasına, onların aradan qaldırılması yollarının müəyyən edilməsimə, aidiyyəti qanunvericiliyin daha da təkmilləşdirilməsinə, bununla da Azərbaycan Respublikasının Konstitusuyası (bundan belə – Konstitusiya) ilə bəyan edilmiş insan və vətəndaş hüquq və azadlıqlarının həyata keçirilməsinə, o cümlədən, konstitusion müdafiə hüququnun müvafiq tələblər səviyyəsində təmin

[1] *Əliyev, A.C. Vəkilliyin anlayışına müasir yanaşma // – Bakı: AMEA Fəlsəfə və Hüquq İnstitutunun elmi əsərləri, – 2015. № 2(25), – səh. 170.*

edilməsinə xidmət edəcəkdir.

Xüsusilə qeyd etmək lazımdır ki, təqsirləndirilən və şübhəli bilinən şəxslərin müdafiəsini təmin edən cinayət-prosessual vasitələrin optimal sisteminin yaradılmasında və həyata keçirilməsində cinayət-prosessual elmi mühüm rol oynayır. Odur ki, hər kəsin konstitusion müdafiə hüququnun təmin edilməsinin cinayət-prosessual aspektlərinin dərindən öyrənilməsi də böyük aktuallıq kəsb edir.

Yuxarıda göstərilən hallar seçilmiş dissertasiya mövzusunun aktuallığını müəyyən etməyə imkan verir.

Qeyd etməliyik ki, SSRİ-nin süqutundan sonra vəkilliyin və vəkillik fəaliyyətinin bir sıra problemləri, xüsusən də dissertasiya mövzusu ilə bağlı olanlar, yəni vəkilliyin konstitusion əsasları, konstitusion müdafiə hüququ, onun cinayət-prosessual aspektləri və digər əlaqəi məsələlər ötən əsrin 90-cı illərindən başlayaraq Rusiya, Ukrayna və MDB üzvü olan digər dövlətlərin hüquqşünas alimləri tərəfində araşdırılmışdır. Məsələn, M.A.Avdeyeva, M.Y.Barşevski, N.M.Bakayanova, İ.A.Baxromov, A.A.Voronov, O.V.Vişnevskaya, S.A.Dexanov, A.Q.Kuçerena, T.Z.Zinnatulin, A.V.Raqulin, İ.L.Trunov, Y.G.Tarlo, Y.S.Pilipenko və digər müəlliflər vəkillik institutunun qarşısında duran problemlərin həlli istiqamətində müəyyən faydalı işlər görmüş, dissertasiyalar, monoqrafiyalar, dərsliklər, dərs vəsaitləri və s. yazmış, nəşr etdirmış, mövcud problemlərin aradan qaldırılması və qanunvericiliyin təkmilləşdirilməsi üçün əhəmiyyətli olan elmi cəhətdən əsaslandırılmış tövsiyə və təkliflər irəli sürmüşlər.

Azərbaycan Respublikasının hüquqşünas alimləri də vəkilliyin və vəkillik fəaliyyətinin ayrı-ayrı problemləri üzərində işləmiş və müəyyən nəticələr əldə etmişlər. Məsələn, F.M.Abbasova, C.Y.Qaracayev, İ.M.Rəhimov, C.İ.Süleymanov, M.S.Qəfərov, F.Y.Xəlilov, N.H.Cəfərli, H.S.Qurbanov, A.X.Rüstəmzadə, Z.N.Aslanov, M.Quliyev və G.Quliyeva və digər müəlliflər dissertasiya mövzusu ilə bu və ya digər dərəcədə bağlı olan mövzulara dair dissertasiyalar, monoqrafiyalar, elmi məqalələr, dərsliklər, dərs vəsaitləri və s. yazaraq nəşr etdirmişlər.

Lakin bütün bunlarla yanaşı, qeyd etmək lazımdır ki, ölkəmizdə dissertasiya mövzusunu tam əhatə edən hərtərəfli elmi araşdırma

aparılmamış, vəkilliyin konstitusion əsasları, konstitusion müdafiə hüququ, onun cinayət-prosessual aspektləri ilə bağlı məsələlər kifayət qədər öyrənilməmişdir.

Hesab edirik ki, bu mövzunun dərindən öyrənilməsi, mövcud problemlərin aşkar edilməsi, onların aradan qaldırılması və qanunvericiliyin təkmilləşdirilməsinin təmin olunması baxımından zəruridir.

Tədqiqatın obyekti və predmeti. Tədqiqatın obyekti vəkilliyin konstitusion hüquqi əsaslari, konstitusion müdafiə hüququ və onun cinayət-prosessual aspektləri, hüquq və azadlıqların müdafiəsi sahəsində yaranan ictimai münasibətlərin məcmusu, hər kəsə ixtisaslı hüquqi yardım göstərilməsinin dövlət təminatıdır.

Tədqiqatın predmeti hüquq və azadlıqlara dair konstitusiya prinsiplərini müəyyən edən normalar, Vəkillik haqqında Qanunun, Cinayət-Prosessual Məcəllənin (bundan belə, zəruri hallarda – AR CPM, yaxud CPM) və digər qanunvericilik aktlarının müddəaları, eləcə də müvafiq sahədə aparılmış nəzəri tədqiqatlardır.

Tədqiqatın məqsəd və vəzifələri. Tədqiqatın məqsədi Azərbaycan Respublikası vəkillik institutunun üzləşdiyi, əsasən də qanunvericilik normaları ilə bağlı olan problemlərin hərtərəfli öyrənilməsi, təhlili, mahiyyətinin açılması, eləcə də onların həlli məqsədilə bəzi qanunvericilik normalarının təkmilləşdirilməsinə dair tövsiyə və təkliflərin əsaslandırılmasından ibarətdir. Bu məqsədə nail olunması üçün aşağıdakı vəzifələrin həlli zəruridir:

– vəkilliyin konstitusion hüquqi əsaslarının, konstitusion müdafiə hüququnun və onun cinayət-prosessual aspektlərinin Konstitusiya ilə müəyyən olunmuş insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsinin təminatı baxımından təhlil olunması;

– müasir cəmiyyətdə vəkilliyin rolunun və yerinin Vəkillik haqqında Qanunun müddəaları əsasında təhlil olunması;

– Azərbaycan Respublikası vəkilliyinin və vəkillik fəaliyyətinin əsas problemlərinin öyrənilməsi və sistemləşdirilməsi;

– vəkilliyin fəaliyyətini tənzimləyən Azərbaycan Respublikası qanunvericiliyində ziddiyyətli məsələlərin və boşluqların müəyyən edilməsi;

– Azərbaycan Respublikası vəkilliyində hazırda mövcud olan əsas problemlərin həlli və tənzimlənməsi üçün mövcud qanunvericiliyin təkmilləşdirilməsinə xidmət edən əsaslı tövsiyələrin verilməsi.

Hesab edirik ki, qarşıya qoyulan məqsəd və vəzifələrin kompleks həlli vəkilliyin və vəkillik fəaliyyətinin tənzimlənməsi sahəsində nəzəri və praktiki tövsiyələrin hazırlanmasına səbəb olacaqdır.

Tədqiqatın metodları. Tədqiqatın metodologiyasını ümumelmi metodlar: idrakın dialektik metodu və sistemli təhlili, sintez, ümumiləşdirmə, eləcə də xüsusi elmi metodlar, yəni tarixi, müqayisəli hüquqi, formal-məntiqi, sosioloji və digər idrak üsulları təşkil edir. Müəllif vəkilliyin təşkili və fəaliyyəti ilə bağlı Konstitusiyada və digər normativ hüquqi aktlarda əks olunmuş müddəaların hərtərəfli tədqiqini aparmışdır. Azərbaycan Respublikasında vəkilliyin və vəkillik fəaliyyətinin inkişafının əsas mərhələləri tədqiqatla əhatə olunmuşdur. Tədqiqat predmetinə dair hüquq ədəbiyyatında yer almış nəzəri fikirlər metodoloji baxımdan tədqiqatların aparılmasında müsbət rol oynamışdır.

Müdafiəyə çıxarılan əsas müddəalar. Tədqiqatın nəticələri əsasında formalaşdırılmış aşağıda göstərilən müddəalar müdafiəyə çıxarılır:

1. Hüquqmüdafiə sisteminin müstəqil elementi kimi formalaşması, özünüidarəetmə prinsipi əsasında fəaliyyət göstərməsi, əsas fəaliyyətinin hüquq və azadlıqların müdafiəsinə, həmçinin vətəndaşlara və hüquqi şəxslərə zəruri hüququ yardımın göstərilməsinə yönəlməsi, başlıca vəzifəsinin bütünlükdə cəmiyyətin maraqlarını müdafiə və təmsil etməkdən ibarət olması Azərbaycan Respublikası vəkilliyini vətəndaş cəmiyyətinin institutu kimi səciyyələndirir.

2. Konstitusiyada hüquq və azadlıqlara və onların müdafiəsinə dair bir sıra müddəaların olmasına, eləcə də həmin hüquq və azadlıqların müdafiəsinə dövlət təminatının verilməsinə baxmayaraq, onların müdafiəsinin kimə həvalə olunmasına aydınlıq gətirilmir. Konstitusiyanın 26 və 61-ci maddələrinin, eləcə də 127-ci maddəsinin II, VII və VIII hissələrinin, habelə hüquq və azadlıqlara dair digər normalarının qarşılıqlı təhlili hüquq və azadlıqların müdafiəsinin əsasən vəkilliyin və onun üzvü olan vəkillərin fəliyyəti ilə bağlı olduğu barədə nəticə çıxarmağa əsas verir. Həmin normaların məzmunundan

görünür ki, burada, müdafiəçi – vəkil nəzərdə tutulur. Azərbaycan Respublikasının vəkillik institutu ona daxil olan vəkillər vasitəsilə vətəndaşlara hüquqi yardım göstərir, onların hüquqlarını və qanuni maraqlarını müdafiə edir. Tutulmuş və həbsə alınmış şəxslərə ixtisaslı hüquqi yardım göstərilməsi xüsusi diqqət və yanaşma tələb edir, belə ki, azadlığı məhdudlaşdırılmış həmin şəxslərin müstəqil müdafiə forma və üsullarını seçmək imkanı olduqca məhduddur. Bütün bunlar göstərir ki, Konstitusion hüquq və azadlıqlara, o cümlədən, müdafiə hüququ və onun təmin olunmasına, eləcə də məhkəmə hakimiyyəti və onun həyata keçirilməsinə dair konstitusiya normaları Azərbaycan Respublikası vəkilliyinin konstitusion hüquqi əsaslarını təşkil edir.

3. Konstitusion hüquq və azadlıqlara, o cümlədən, müdafiə hüququna və onun təmin edilməsinə dair konstitusiya normalarını, eləcə də Vəkillik haqqında Qanunun vəkillərin cinayət mühakimə icraatında həyata keçirdikləri hüquq və vəzifələrə dair nomalarını AR CPM-ində konkretləşdirən və dəqiqləşdirən normalar Azərbaycan Respublikası vəkilliyinin və konstitusion müdafiə hüququnun cinayət-prosessual aspeklərini təşkil edir.

4. Konstitusiya cinayət-prosessual hüququn normativ mənbəyi kimi hüquq və azadlıqların əsas prinsip və təminatlarını ehtiva edərək ölkənin bütün ərazisində həmin sahəyə dair ictimai münasibətləri həm birbaşa, həm də ayrı-ayrı konstitusiya müddəalarının cinayət-prosessual qanunda konkretləşdirilməsi, yəni dolayısı ilə tənzimləyir.

5. Azərbaycan SSR-in 1978-ci il Konstitusiyasının **"**Məhkəmə və Arbitraj" adlandırılan 21-ci fəslinin 170-ci maddəsində müttəhimin müdafiə hüququnun təmin edilməsi, 173-cü maddəsində isə vətəndaşlara və təşkilatlara hüquqi yardım göstərilməsi üçün vəkillər kollegiyasının fəaliyyət göstərdiyi bəyan edilirdi. Yəni faktiki olaraq vəkillik konstitusiya orqanı kimi tanınırdı. Bundan fərqli olaraq Azərbaycan Respublikasının qüvvədə olan Konstitusiyasında vəkilliyin adı çəkilmir, Konstitusiya ilə müəyyən olunmuş çoxsaylı insan və vətəndaş hüquq və azadlıqların müdafiəsinin həyata keçirilməsinin xüsusi subyekti və vətəndaş cəmiyyətinin institutu kimi onun yeri müəyyən olunmur. Hesab edirik ki, bu aradan qaldırılması zəruri olan ciddi boşluqdur.

6. Konstitusiyanın 25-ci maddəsilə nəzərdə tutulan qanun və

məhkəmə qarşısında bərabərlik prinsipi əlavə şərh edilməsi zəruri olmayan müstəqil prinsip, müvafiq hüquqi münasibətləri tənzimləyən bilavasitə təsir qüvvəli konstitusiya normasıdır. Əsas konstitusiya müddəalarından biri olan bərabərlik prinsipini mahiyyətcə ona yaxın olan cinayət prosesi tərəflərinin prosessual bərabərliyi və çəkişməsinə dair sahəvi prinsiplə eyniləşdirilməsi yolverilməzdir, belə ki, prosessual bərabərlik nisbi bərabərliyi, yəni subyektlər arasında bərabərliyi nəzərdə tutduğu halda, qanun və məhkəmə qarşısında bərabərlik mütləq xarakter daşıyır, başqa subyektlərin iştirakını tələb etmir.

7. Konstitusiyanın ən yüksək və birbaşa hüquqi qüvvəyə malik olduğunun, eləcə də qanunvericilik sisteminin əsasını təşkil etdiyinin Konstitusiyasının 147-ci maddəsilə bəyan edilməsi təcrübi əhəmiyyətə malikdir. Çünki, ən yüksək və birbaşa hüquqi qüvvəyə malik olması Konstitusiyanın ictimai həyatın və dövlət quruculuğunun bütün sahələrində sosial və siyasi münasibətlərə real təsir göstərən fenomen olduğunu təsdiq edir, onun Azərbaycan Respublikasının qanunvericilik sisteminin əsasını təşkil etməsi isə dövlətin qanunvericilik fəaliyyətinin dəqiq tənzimlənməsinə, Konstitusiya ilə digər hüquqi aktlar arasında ziddiyyətlərə yol verilməməsinə şərait yaradır. Bütün bunlar təhlil olunun 147-ci maddəni əlavə şərh edilməsinə zərurət olmayan bilavasitə təsir qüvvəli konstitusiya norması kimi səciyyələndirir.

8. "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun (bundan belə – "Prokurorluq haqqında" Qanunun) 2-ci maddəsi ilə Azərbaycan Respublikası Prokurorluğunun məhkəmə hakimiyyəti sisteminə aid edilməsi və "Azərbaycan Respublikasının Prokurorluğu" adlanan 133-cü maddənin Konstitusiyanın "Məhkəmə hakimiyyəti" adlanan VII fəslində nəzərdə tutulması aradan qaldırılması zəruri olan ciddi problemlərdir. Konstitusiyanın 125-ci maddəsinin IV hissəsinə əsasən, cinayət mühakimə icraatında Prokurorluq və müdafiə tərəfi iştirak edir. Odur ki, cinayət mühakimə icraatında tərəflərdən biri olan, yəni ittiham tərəfini təmsil edən prokurorluq eyni zamanda məhkəmə hakimiyyətini təmsil edə bilməz. Belə ki, bu Konstitusiya ilə müəyyən edilmiş hakimiyyətlərin bölünməsi, tərəflərin hüquq bərabərliyi və

çəkişmə prinsiplərinə ziddir. Qeyd olunan ziddiyyətlərin aradan qaldırılması məqsədilə "Prokurorluq haqqında" Qanuna və Konstitusiyaya müvafiq dəyişikliklərin edilməsini məqsədəuyğun hesab edirik (bax: dissertasiyanın nəticə hissəsi).

9. Cinayət mühakimə icraatı subyektlərinin funksiyalarının dəqiq müəyyən edilməsi və onları bir-birindən tam ayırması yolu ilə mövcud ziddiyyətlərin və problemlərin aradan qaldırılması, eləcə də müdafiə funksiyasının müvafiq tələblər səviyyəsində həyata keçirilməsinin təmin edilməsi məqsədilə AR CPM-ində, Vəkillik haqqında Qanunda, "Prokurorluq haqqında" Qanunda, Azərbaycan Respublikasının İnzibati və Cəzaların İcrası Məcəllələrində və Müvəqqəti saxlama yerlərinin daxili intizam Qaydalarında dissertasiyanın müvafiq paraqraflarında əsaslandırılan və nəticə hissəsində göstərilən dəyişikliklərin və əlavələrin edilməsini, bunlarla yanaşı, hüquqtətbiqetmə subyektlərinin hüquq düşüncəsinin inkişaf etdirilməsi və məsuliyyətinin artırılması ilə bağlı tədbirlərin işlənib həyata keçirilməsini zəruri hesab edirik.

10. Tədqiqatın nəticələri göstərir ki, müdafiəyə çıxarılan müddəaların 2, 5 və 8-ci bəndlərində göstərilən boşluq və ziddiyyətli hallardan başqa, Konstitusiyanın 27, 61, 63, 64, 65 və 68-ci maddələrinin mətnlərində də müəyyən qüsurlu hallar mövcuddur. Qeyd olunan ziddiyyətli və qüsurlu halların mövcudluğu dissettasiyanın III fəslinin 3.2-ci paraqrafının 3.2.3-cü bəndinin həmin maddələrin təhlili ilə bağlı hissələrində kifayət qədər əsaslandırılmışdır.

Tədqiqatın elmi yeniliyi. Tədqiqatın elmi yeniliyi ondan ibarətdir ki, Azərbaycan Respublikasında ilk dəfə olaraq vəkilliyin və vəkillik fəaliyyətinin nəzəri və praktiki problemlərinin hərtərəfli öyrənilməsi məqsədilə konstitusion müdafiə hüququ və onun cinayət-prosessual aspektləri qarşılıqlı şəkildə təhlil edilmiş, müvafiq qanunvericilik aktlarında müəyyən ziddiyyət və boşluqların olduğu əsaslandırilmiş və onların aradan qaldırılması üçün müvafiq tövsiyə və təkliflər irəli sürülmüşdür.

Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti. Tədqiqatın nəzəri və

praktiki əhəmiyyəti ilk növbədə müəllifin formalaşdırdığı müddəaların aktuallığı və yeniliyi, eləcə də müvafiq qanunvericiliyin təkmilləşdirilməsinə dair əsaslandırılmış təkliflərin irəli sürülməsi ilə müəyyən edilir.

Bundan əlavə, dissertasiya işinin materialları və nəticələri tədris prosesində, vəkilliyin və vəkillik fəaliyyətinin öyrənilməsində, həmçinin bu sahədə sonrakı elmi tədqiqat işlərinin aparılmasında, dissertasiyada əks olunan nəticə və tövsiyələr vəkillik fəaliyyətini tənzimləyən qanunvericilik normalarının təkmilləşdirilməsi prosesində, habelə hüquqtətbiqetmə təcrübəsində istifadə oluna bilər.

Tədqiqatın aprobasiyası və tətbiqi. Tədqiqatının əsas müddəaları müəllifin dərc olunmuş 37 elmi məqaləsində öz əksini tapmışdır. Onlardan 21-i Azərbaycan Respublikasının Prezidenti yannında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi elmi jurnallarda dərc olunmuş, 6-sı Rusiya, Ukrayna və Belorusun Ali Attestasiya Komissiyaları tərəfində elmi dərəcə və elmi ad verilməsi üçün elmi məqalələrin dərc olunması tövsiyə edilən jurnallarında dərc olunaraq Rusiya elmi xülasələşdirmə indeksləmə bazalarının daxil olduğu eLIBRARY.RU – elmi nəşrlərin elektron kitabxanasına əlavə edilmiş, 2-si Web of Science, SCOPUS və Erih Plus beynəlxalq xülasələndirmə və indeksləmə sistemlərinə (bazalarına) daxil olan jurnallarda dərc olunmuş, 8-i müəllifin iştirak etdiyi elmi-praktik konfransların (o cümlədən, 7-si beynəlxalq konfranslarda: 23-24 oktyabr 2014-cü ildə Bakıda keçirilnmiş "*Azərbaycanda hüquqi dövlət quruculuğunun aktual problemləri* (*fəlsəfi, sosioloji və hüquqi təhlil və proqnozlaşdırma*)" mövzusunda II beynəlxalq elmi-praktik konfrasda, 17-18 may 2019-cu ildə Nalçikdə keçirilnmiş "*Qloballaşma şəraitində cinayətkarlığa qarşı effektiv mübarizə: problemlər və perspektivlər*" mövzusunda beynəlxalq elmi-praktik konfransda, 30-31 iyul 2019-cu ildə Moskvada keçirilmiş Avrasiya Elmi Birliyinin "*Müasir elmin nəzəri və praktiki məsələləri"* mövzusunda LIII beynəlxalq elmi-praktik konfransda, 27 dekabr 2022-ci ildə Bakıda keçirilmiş Ümumdünya

insan hüquqları Bəyannaməsinin 74 illiyinə həsr olunmuş "*Müasir dövrdə insan hüquqlarının aktual problemləri*" mövzusunda beynəlxalq elmi-praktik konfransda, 9-12 may 2024-cü ildə Serbiyada keçirilmiş "*Ənənələr, cinayət və beynəlxalq cinayət hüququ*" mövzusunda beynəlxalq elmi-praktik konfransda, 17-18 iyun 2025-ci ildə AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunda keçirilmiş, Heydər Əliyevin 102-ci ildönümünə həsr olunmuş "*Heydər Əliyevin ideya irsi: suverenitet və konstitusionalizmin fəlsəfi problemləri*" mövzusunda beynəlxailq elmi konfransda və 30 oktyabr-01 noyabr 2025-ci ildə Serbiyada keçirilmiş "*Beynəlxalq cinayət hüququnun çağırışları*" mövzusunda beynəlxalq elmi-praktik konfransda) materiallarında nəşr olunmuşdur.

Müəllifin qanunvericiliyin təkmilləşdirilməsinə dair təklifləri ayrı-ayrı elmi məqalələrdə və dissertasiyanın nəticə hissəsində verilmişdir. Dissertasiyanın ilkin müzakirəsindən sonra həmin təkliflərin Milli Məclisə təqdim olunması nəzərdə tutulur.

Dissertasiya işinin nəticələrinin, yuxarıda qeyd olunanlarla yanaşı, qanunvericilik normalarının təkmilləşdirilməsi üzrə qanunvericilik fəaliyyətində, hüquq hazırlığı üzrə tədris prosesində, hüquqtətbiqetmə təcrübəsində, hüquqtətbiqetmə sahəsində çalışan praktiki işçilərin cəlb edildiyi ixtisasartırma kurslarının fəaliyyətində, dərslik və dərs vəsaitlərinin hazırlanması prosesində, eləcə də müvafiq sahəyə dair elmi tədqiqatların aparılmasında və digər əlaqəli məsələlərin həllində tətbiq edilməsi mümkündür.

Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı. Dissertasiya işi Milli Aviasiya Akademiyasının "Hüquq" kafedrasında yerinə yetirilmişdir.

Dissertasiya işinin strukturu. Dissertasiya girişdən, dörd fəsildən, on üç paraqrafdan, nəticədən, istifadə edilmiş ədəbiyyat siyahısından, əlavələrdən və ixtisarların siyahısından ibarətdir. Dissertasiyanın ümumi həcmi: 327 səhifə, giriş, ədəbiyyat siyahısı, əlavələr və ixtisarların siyahısı istisna olunmaql a 502193 işarə təşkil edir.

İŞİN ƏSAS MƏZMUNU

Girişdə tədqiqat mövzusunun aktuallıgı əsaslandırılmış, onun işlənmə dərəcəsi, obyekti və predmeti, məqsəd və vəzifələri, işlənmə metodları və elmi yeniliyi barədə məlumat verilmiş, müdafiəyə çıxarılan əsas müddəalar sadalanmış, tədqiqatın nəzəri və praktiki əhəmiyyəti səciyyələndirilmiş, aprobasiyası və tətbiqi sahələri açıqlanmış, bir sözlə dissertasiya işinin ümumi mahiyyəti işıqlandırılmışdır.

Dissertasiyanın «***Azərbaycan Respublikasında vəkillik***» adlanan birinci fəslinin «***Azərbaycan Respublikasında vəkilliyin yaranması və inkişaf mərhələləri***» adlı 1.1-ci paraqrafında 1920-ci ildən başlayaraq Azərbaycan Sovet Sosialist Respublikasında və SSRİ-nin süqutundan sonra yaranmış müstəqil Azərbaycan Respublikasında vəkilliyin yaranması və inkişaf mərhələləri müvafiq ardıcıllıqla təhlil olunmuş və yekun olaraq müəllif belə nəticəyə gəlinmişdir ki, Sovet Azərbaycanının paytaxtı Bakı şəhərində ilk hüquq müdafiəçiləri kollegiyasının yaradıldığı 23 may 1920-ci ilin Azərbaycanda vəkilliyin yaranma tarixi kimi qəbul olunması düzgün olar. Bundan sonra SSRİ-nin süqutunadək davam etmiş 71 illik bir zaman kəsiyində Azərbaycan SSR-in Vəkillər Kollegiyası sovetlər birliyində mövcud olmuş ictimai-siyasi və iqtisadi münasibətlərə uyğun olaraq çox ziddiyyətli və mürəkkəb bir inkişaf mərhələsi keçmiş, SSRİ-nin süqutundan sonra əldə olunmuş dövlət müstəqilliyi və demokratikləşmə şəraitində keçirilən hüquqi islahatların təsiri nəticəsində təkmilləşərək özünüidarəetmə prinsipinə əsaslanan müstəqil qeyri-hökumət təşkilatına çevrilmişdir[2].

Həmin fəslin «***Vəkilliyin mahiyyəti, «Vəkillər və vəkillik fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş əsasları***» adlanan 1.2-ci paraqrafında müəllif ilk növbədə vəkillik institutunun səciyyəvi cəhətlərini təhlil edərək onun mahiyyətini müəyyən etməyə çalışmış və tədqiqatın nəticələrinə əsaslanaraq Azərbaycan Respublikasın vəkillik institutunu aşağıdakı kimi səciyyələndirmişdir: «*Vəkillik – fiziki və hüquqi şəxslərə onların*

[2] *Əliyev, A.C. Azərbaycan Respublikasının vəkillik institutu Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ərəfəsində // – Bakı: DİN Polis Akademiyasının Xəbərləri, – 2018. № 1-2, – s. 129-130.*

hüquqlarının və qanuni maraqlarının müdafiəsinin təmin olunması üçün hüquqi yardım göstərilməsi məqsədilə yaradılmış, vəkil statusuna malik olan yüksək ixtisaslı hüquqşünasların qanunun aliliyi, müstəqillik, özünüidarəetmə və demokratizm və digər bu kimi zəruri prinsiplərə əsaslanan peşəkar, qeyri-dövlət və qeyri-kommersiya birliyidir»[3].

Daha sonra, müəllif «Vəkillər və vəkillik fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununu təhlil edir və Qanunun bir sıra qüsurlu cəhətlərə malik olduğunu qeyd edir[4]. İlk növbədə Qanunun adında dissertasiyanın nəticə hissəsinin 1.1-a bəndində göstərilən qaydada dəyişiklik edilməsi təklif olunur.

Digər qüsurlu cəhət həmin qanunun quruluşu ilə bağlıdır. Onun aradan qaldırılması üçün Qanunun maddələrin dissertasiyanın nəticə hissəsinin 1.1-b bəndində göstərilən ardıcıllıqla yerləşdirilməsi təklif olunur.

Qanunun qüsurlu cəhətlərindən biri də onda vəkillik fəaliyyətinin dayandırılmasına dair normanın nəzərdə tutulmaması ilə bağlıdır. Odur ki, Qanuna dissertasiyanın nəticə hissəsinin 1.1-c bəndində göstərilən məzmunda yeni maddənin əlavə olunması təklif olunur.

Dissertasiyanın I fəslinin «***Vəkillik vətəndaş cəmiyyətinin institutu kimi***» adlanan 1.3-cü paraqrafının təhlilinə əsaslanan müəllif belə nəticəyə gəlir ki, «*hüquqmüdafiə sisteminin müstəqil elementi kimi formalaşması, özünüidarəetmə prinsipi əsasında fəaliyyət göstərməsi, əsas fəaliyyətinin insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi, həmçinin vətəndaşlara zəruri hüququ yardımın göstərilməsi olması, başlıca vəzifəsinin təkcə ayrı-ayrı şəxslərin yox, bütün cəmiyyətin maraqlarını müdafiə və təmsil etməkdən ibarət olması kimi səciyyəvi xüsusiyyətlər Azərbaycan Respublikası vəkilliyini vətəndaş cəmiyyətinin institutu kimi müəyyən etməyə əsas verir*»[5].

---

[3] *Əliyev, A.C. Vəkilliyin anlayışına müasir yanaşma // – Bakı: AMEA Fəlsəfə və Hüquq İnstitutunun Elmi əsərləri, – 2015. № 2(25), – s.173.*

[4] *Əliyev, A.C. Azərbaycan Respublikasının vəkillik institutu Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ərəfəsində // – Bakı: DİN Polis Akademiyasının Xəbərləri, – 2018. № 1-2, – s. 129-130.*

[5] *Əliyev, A.C. Azərbaycan Respublikasında vəkillik, vətəndaş cəmiyyəti institutu kimi // – Bakı: DİN Polis Akademiyasının Xəbərləri, – 2017. № 2(22), – s. 85.*

Həmin fəslin «***Şəxsiyyətin hüquqi statusu, onun hüquq və azadlıqlarının təmin edilməsində vəkilliyin yeri***» adlanan 1.4-cü paraqrafında aparılan tədqiqatın nəticələrinə əsaslanmaqla qeyd edilir ki, vəkillik haqqında qanunvericilik funksional planda Konstitusiyanın 61-ci maddəsinə əsaslanır, lakin həmin norma ilə təminat verilən hüquqi yardımın kim tərəfindən göstərilicəyi Konstitusiyada müəyyən olunmur. Hesab edilir ki, «*Konstitusiyada hüquq müdafiə fəaliyyətinin əsas subyekti olan vəkillik institutuna dair normanın olmaması, hər kəsin Konstitusiya ilə təminat verilmiş hüquqi yardım almaq hüququnun və şəxsiyyətin Konstitusiya ilə müəyyən edilmiş hüquq və azadlıqlarının təmin edilməsində, ölkədə məhkəmə hakimiyyətinin fəaliyyətinin və ədalət mühakiməsinin həyata keçirilməsinin təmin edilməsində vəkilliyin rolunun müəyyən edilməməsi ciddi və aradan qaldırılması zəruri olan problemdir*»[6].

Digər anlaşılmazlıq Konstitusiyanın «Azərbaycan Respublikasının Prokurorluğu» adlanan 133-cü maddəsinin Konstitusiyanın «Məhkəmə hakimiyyəti» adlanan VII fəslinə daxil edilməsi ilə bağlıdır. Aydın məsələdir ki, cinayət mühakimə icraatında ittiham tərəfi kimi iştirak edən prokurorluq eyni zamanda məhkəmə hakimiyyəti sisteminə aid edilə bilməz. Belə ki, bu, hər şeydən əvvəl, hakimiyyətlərin bölgüsü prinsipinə ziddir. Buna baxmayaraq, «Prokurorluq haqqında» Qanunda daha bir ciddi səhvə yol verilmiş və həmin Qanunun 2-ci maddəsində prokurorluğun məhkəmə hakimiyyəti sisteminə daxil olduğu göstərilmişdir[7].

Qeyd olunan ziddiyyətlərin aradan qaldırılması üçün müvafiq qanunvericiliyə dissertasiyanın nəticə hissəsinin 1.2-a bəndində göstərilən qaydada dəyişiklik edilməsi təklif olunur.

Dissertasiyanın I fəslinin «***Vəkilliyin və vəkillik fəaliyyətinin hüquqi prinsipləri və etik əsasları***» adlanan 1.5-ci paraqrafının

---

[6] *Алиев, А.Д. Об определении места адвокатуры в обеспечении конституционных прав личности в Азербайджанской Республике // – Москва: Адвокатская практика, – 2020. № 5, – с.58.*

[7] *Алиев, А.Д. Об определении места адвокатуры в обеспечении конституционных прав личности в Азербайджанской Республике // – Москва: Адвокатская практика, – 2020. № 5, – с.56-57.*

adından da göründüyü kimi, burada vəkillik institutunun və vəkillik fəaliyyətinin hüquqi prinsip və etik əsaslarına dair məsələlər təhlil olunur. Tədqiqatın nəticələrinə əsaslanan müəllif belə həticəyə gəlir ki, humanizm, ədalət, aşkarlıq və konfidensiallıq kimi hüquqi prinsiplər "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 1-ci maddəsinə xüsusi zərurət olmadan vəkilliyin prinsipləri kimi daxil edilmişdir. Belə ki, bəyannamə xarakteri daşıyan bu prinsiplər bütün fiziki və hüquqi şəxslər, o cümlədən, vəkillik tərəfindən müvafiq hallarda və şəraitdə riayət edilməli olan ümumi hüquqi prinsiplərdir. Konfidensiallıq prinsipinə gəlincə əlavə olaraq qeyd olunur ki, bu prinsipin Vəkillik haqqında Qanunun 5-ci maddəsinin I hissəsində nəzərdə tutulması daha düzgün olardı.

Bu normanın digər qüsurlu cəhəti ondadır ki, burada «*irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, insan və vətəndaş hüquq və azadlıqlarının üstünlüyü*» vəkillik fəaliyyətinin prinsiplərindən biri kimi müəyyən edilir. Konstitusiyada insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədi kimi bəyan edildiyi halda həmin prinsipin vəkillik fəaliyyətinin prinsipi kimi təqdim edilməsi məqsədəuyğun deyil.

Hesab edilir ki, qeyd olunan nöqsanların aradan qaldırılması məqsədilə Qanunun 1-ci maddəsinin II hissəsinin və 5-ci maddəsinin I hissəsinin dissertasiyanın nəticə hissəsinin 1.3-a və 1.3-b bəndlərində göstərilən məzmunda yeni redaksiyada verilməsi məqsədəuyğundur[8].

Vəkil etikasına gəldikdə isə müəllif onu peşə fəaliyyəti zamanı və gündəlik həyatda vəkildən tələb olunan mənəvi keyfiyyətləri öyrənən, vəkilin iştirakı ilə həyata keçirilən bu və ya digər prosessual şəraitdə zəruri davranış qaydalarının formalaşdırılmasına kömək edən elm kimi müəyyən edir və qeyd edir ki, vəkil etikası vəkilin prosessual və qeyri-prosessual fəaliyyətinin mənəvi əsaslarını özündə əks etdirir. Vəkil etikası sadəcə olaraq etik normalar məcmusu deyil, əxlaqi,

[8] *Алиев, А.Д. Правовые принципы адвокатуры и адвокатской деятельности в Азербайджанской Республике // – Нижний Новгород: Вестник Нижегородского университета им. Н.И. Лобачевского – 2020. № 4, – с. 77.*

mənəvi və hüquqi tələbləri üzvü olaraq özündə birləşdirən etik məcəllədir. Müəllifin fikrincə, mənəvi və hüquqi tələblərə əsaslanan etik normalara ciddi şəkildə riayət olunması vəkillik fəaliyyətinin yüksək tələblər səviyyəsində həyata keçirilməsinə şərait yaradır, vətəndaşların müdafiə hüququnun təsirli olaraq həyata keçirilməsinə təminat verir[9].

Dissertasiyanın «***Azərbaycan Respublikasında vəkilliyin və cinayət-prosessual qanunun konstitusion əsasları***» adlanan II fəslinin «***Konstitusiyada təsbit olunmuş insan və vətəndaş hüquq və azadlıqlarına təminat verən prinsiplər vəkilliyin konstitusion əsasları kimi***» adlanan 2.1-ci paraqrafında vəkillik institutunun formalaşması və fəaliyyət göstərməsi dövlət müstəqilliyinin əldə edilməsi ilə qırılmaz şəkildə bağlı olduğu qeyd edilir. Belə ki, 12 noyabr 1995-ci ildə Konstitusiya qəbul olunmuş, 2002, 2009 və 2016-cı illərdə isə ona müvafiq əlavə və dəyişikliklər edilmişdir. 28 dekabr 1999-cu ildə "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanunu, 14 iyul 2000-ci ildə isə CPM qəbul olunmuşdur. Qeyd olunan qanunvericilik aktlarından hər biri vəkillik haqqında qanunvericiliyin

tərkib hissəsi olmaqla vəkillik institutunun formalaşması və fəaliyyət göstərməsi üçün həlledici əhəmiyyət kəsb edir.

Qeyd edilir ki, Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında Qanununa əsasən yaradılmış ictimai birliklərdən fərqli olaraq vəkillik ədalət mühakiməsinin həyata keçirilməsi sahəsində birlik üzvlərinin özlərinin deyil, vəkillərin köməyinə ehtiyacı olan fiziki və hüquqi şəxslərin qeyri-məhdud dairəsinin mənafelərinin müdafiəsi ilə bağlı dövlət əhəmiyyətli funksiyaları yerinə yetirir. Həmin funksiyalar əsasən Konstitusiya və ona uyğun olaraq qəbul olunmuş "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanunu ilə müəyyən olunur. Odur ki, bu paraqrafda Konstitusiya ilə bəyan olunmuş insan və vətəndaş hüquq və azadlıqlarının təminatı ilə bağlı vəzifələrin məhz vəkilliyin konstitusion əsasları kimi səciyyələndirməklə təhlil olunması zəruri hesab edilir.

[9] *Əliyev, A.C. Vəkil etikasının bəzi məsələləri // – Bakı: Nəqliyyat hüququ, – 2013. № 1, – s. 81.*

Konstitusiyanın III fəslində (24-71-ci maddələr) əsas insan və vətəndaş hüquq və azadlıqları normativ olaraq təsbit edilir. Həmin hüquq və azadlıqlar beynəlxalq hüququn hamılıqla tanınmış prinsiplərinə uyğundur. Belə ki, onlar "İnsan hüquqları haqqında ümumi Bəyannamə»də, "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyası»nda, "Mülki və Siyasi Hüquqlar Haqqında Pakt»da, digər beynəlxalq sənədlərdə, eləcə də inkişaf etmiş bir sıra qərb dövlətlərinin konstitusiyalarında nəzərdə tutulur. Qeyd olunan hüquq və azadlıqların dövlət tərəfindən müdafiəsini təmin edən Konstitusiya hər kəsə qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquqlarını və azadlıqlarını müdafiə etmək, zəruri hallarda ixtisaslı hüquqi yardım almaq və müdafiəçinin köməyindən istifadə etmək hüquqları verir (26 və 61-ci maddələr). Konstitusiyanın 26 və 61-ci maddələrinin məzmunu insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsinin əsasən vəkilliyin və onun üzvü olan vəkillərin fəliyyət sahəsinə aid olduğunu müəyyən etməyə imkan verir.

Konstitusiyanın 61-ci maddəsinin II hissəsilə müəyyən edildiyi kimi, qanunla nəzərdə tutulmuş hallarda hüquqi yardım ödənişsiz, dövlət hesabına göstərilir. Vəkillik haqqında Qanunun 20-ci maddəsində göstərildiyi kimi, inzibati qaydada tutulmuş şəxslərə, cinayət işləri üzrə şübhəli və ya təqsirləndirilən şəxslərə və məhkəmədə vəkilin xidmətlərini ödəmək üçün kifayət qədər vəsaiti olmayan şəxslərə hər hansı bir məhdudiyyət qoyulmadan vəkil tərəfindən göstərilən hüquqi yardım dövlət hesabına həyata keçirilir.

Cinayət işləri üzrə təqsirləndirilən şəxsin müdafiə hüququnun təmin edilməsi ədalət mühakiməsinin həyata keçirilməsinin əsas prinsiplərindən biri olmaqla, Konstitusiyanın 61-ci maddəsinin III hissəsinə əsaslanır. Həmin norma ilə müəyyən edildiyi kimi, "*hər bir şəxsin səlahiyyətli dövlət orqanları tərəfindən tutulduğu, həbsə alındığı, cinayət törədilməsində ittiham olunduğu andan müdafiəçinin köməyindən istifadə etmək hüququ*»nun bəyan edilməsinə əsaslanır. Qeyd etmək lazımdır ki, cinayət təqibinə məruz qalmış hər bir şəxsin müdafiə hüququna Konstitusiyanın bir sıra digər maddələrinin müddəaları ilə də təminat verilir. Bu qəbildən olan normalar kimi Konstitusiyanın 12, 24, 25, 27, 28, 32, 46, 60, 63, 71 və 127-ci maddələrini misal göstərmək olar.

Konstitusiyayanın 26-cı maddənin II hissəsilə dövlət öz üzərinə insan və vətəndaş hüquq və azadlıqlarını tanımaq, onlara riayət etmək barədə öhdəlik götürməklə yanaşı, eyni zamanda hər kəsin hüquqlarının və azadlıqlarının müdafiəsinə təminat verir. İnsan müvafiq dövlət orqanları ilə cinayət-hüquqi və cinayət-prosessul münasibətlərdə olduğu zaman bu təminat xüsusilə böyük əhəmiyyət kəsb edir.

Dissertasiyanın II fəslinin «***Azərbaycan Respublikasının Konstitusiyası cinayət-prosessual qanunun əsas mənbəyi kimi***» adlanan 2.2-ci paraqrafında cinayət-prosessual qanunvericiliyin mənbəyi kimi, Konstitusiyanın əhəmiyyəti müəyyən edilir. Belə ki, daha yüksək hüquqi qüvvəsinə görə Konstitusiya cinayət-prosessual qanunvericiliyin uyğunlaşmalı olduğu bir sıra əsas normaları ehtiva edir.

Konstitusiyanın 147-ci maddəsilə Konstitusiyanın ən yüksək və birbaşa hüquqi qüvvəyə malik olmasının, eləcə də Azərbaycan Respublikası qanunvericilik sisteminin əsasını təşkil etməsinin bəyan edilməsi yeni yaranmış müstəqil dövlət kimi Azərbaycan Respublikasının qanunvericilik sisteminin hüquqi əsasını qoymuş, onun inkişafının əsas istiqamətlərini, eləcə də qanunlar və digər normativ aktlar sırasında yerini müəyyən etmişdir. Bunun nəticəsi olaraq Azərbaycan Respublikasının qanunvericilik sistemində Konstitusiya başda olmaqla normativ hüquqi aktların dəqiq iyerarxiyası müəyyən edilmiş, ictimai münasibətlərin tənzimlənməsində Konstitusiyanın sahə qanunları və normativ aktlarla qarşılıqlı əlaqəsinin əsas istiqamətləri formalaşmış, konstitusiya normalarının həyata keçirilmə mexanizmi müəyyən edilmişdir. Bu o deməkdir ki, Konstitusiya dövlətin qanunvericilik sisteminin ən yüksək pilləsində duraraq bütün qanunvericiliyin sisteminin hüquqi bazasını təşkil edir.

Konstitusiya cinayət-prosessual qanunun ən yüksək hüquqi qüvvəyə malik olan mənbəyidir. O, cinayət-prosessual qanunun prinsipləri və ya əsas müddəaları olan bir sıra normaları ehtiva edir. Məsələn, belə normalara aşağıdakılar aid edilir: 25-ci maddənin I hissəsi, 26-cı maddənin I hissəsi, 28-ci maddənin II hissəsi, 32-ci maddənin I və IV hissələri, 33-cü maddə, 46-cı maddə, 60-cı maddə, 61-ci maddənin I və III hissələri, 63-cü maddənin I-IV hissələri, 64, 65, 66 və 67-ci maddələr, 68-ci maddənin II və III hissələri.

Konstitusiyanın yuxarıda göstərilən prinsip və müddəaları CPM-in «Cinayət mühakimə icraatının vəzifələri, əsas prinsipləri və şərtləri» adlanan II fəslinin 8 - 36-cı maddələrində yer almışdır.

Beləliklə, yuxarıda göstərilən bütün halların yekunu olaraq aşağıdakı nəticələrə gəlinir:

1. Konstitusiya hüquqi qüvvəsinə görə ən yüksək qanunvericilik aktı olmaqla ölkənin qanunvericilik və hüquq sistemlərinin ən mühüm elementini təşkil edir. Konstitusiya ölkənin ictimai və dövlət quruluşunun əsas prinsiplərini müəyyən edir. Konstitusiyanın hüquq mənbələri sistemində aparıcı roluna gəldikdə, bu, istisnasız olaraq hüququn bütün sahələrinə şamil edilir.

2. Azərbaycan Respublikası cinayət-prosessual hüququnun normativ bazası olan Konstitusiya insan və vətəndaş hüquq və azadlıqlarının əsas prinsip və təminatlarını ehtiva edərək ölkənin bütün ərazisində həmin sahəyə dair ictimai münasibətləri birbaşa, eləcə də dolayısı ilə yəni ayrı-ayrı konstitusiya müddəalarını cinayət-prosessual qanunda konkretləşdirməklə, tənzimləyir.

3. Konstitusiya Məhkəməsinin qərarları hüquqtətbiqetmə orqanlarını və vəzifəli şəxsləri konstitusiya normalarının düzgün başa düşülməsinə və tətbiqinə istiqamətləndirir. Odur ki, Konstitusiya Məhkəməsinin qərarları bütün dövlət orqanları, o cümlədən, Milli Məclis, eləcə də vəzifəli şəxslər tərəfindən vaxtında və dəqiq icra olunmalıdır.

Qeyd edilir ki, bir sıra cinayət-prosessual normalar birbaşa olaraq Konstitusiyanın «Əsas insan və vətəndaş hüquqları və azadlıqları» adlanan III fəslində təsbit edilmişdir. Məsələn, həmin normalarla azadlığın qanunla nəzərdə tutulmuş qaydada tutulma, həbsəalma və ya azadlıqdan məhrumetmə yolu ilə məhdudlaşdırılması (28-ci maddə), mənzildə yaşayanların iradəsinə zidd olaraq mənzilə daxil olmanın yolverilməzliyi (33-cü maddə), ixtisaslı hüquqi yardım almaq hüququ (61-ci maddə), təqsirsizlik prezumpsiyası (63-cü maddə) və s. Bu normaların aşkar cinayət-prosessual xarakter daşıması mübahisəsizdir.

Konstitusiyada təqsirsizlik prezumpsiyasından irəli gələn ən mühüm qaydalar ifadə olunmuş (63-cü maddə), eyni cinayətə görə təkrar məhkumedilmənin yolverilməzliyi prinsipi bəyan edilmiş (64-ci maddə) və ən əsası, ilk dəfə olaraq dərin əxlaq normaları qanunvericiliklə təsbit edilmişdir. Məsələn:

– şəxsiyyətin ləyaqəti dövlət tərəfindən qorunur. Heç bir hal şəxsiyyətin ləyaqətinin alçaldılmasına əsas verə bilməz (46-cı maddənin II hissəsi);

– heç kəsə işgəncə və əzab verilə bilməz. Heç kəs insan ləyaqətini alçaldan rəftara və ya cəzaya məruz qala bilməz. Özünün könüllü razılığı olmadan heç kəsin üzərində tibbi, elmi və başqa təcrübələr aparıla bilməz (46-cı maddənin III hissəsi);

– ədalət mühakiməsi həyata keçirilərkən qanunu pozmaqla əldə edilmiş sübutlardan istifadə oluna bilməz (63-cü maddənin IV hissəsi);

– heç kəs özünün, həyat yoldaşının və yaxın qohumlarının əleyhinə ifadə verməyə məcbur edilə bilməz (maddə 66).

Cinayət prosesinin bu konstitusiya prinsipləri cinayət-prosessual sübutetmə proseduru və elan olunmuş ittihamdan müdafiə üzrə cinayət-prosessual normaların bütün kompleksinin real həyata keçirilməsində həlledici əhəmiyyət kəsb edirlər. Odur ki, bu konstitusiya prinsiplərinə vaxtında və dəqiq riayət olunması əsas insan və vətəndaş hüquq və azadlıqlarına konstitusiya təminatı verir.

Dissertasiyanın «***Azərbaycan Respublıkasında konstıtusion müdafiə hüququ və onun cinayət-prosessual aspektləri***» adlanan III fəslinin «***Konstitusiyada təsbit olunmuş müdafiə hüququnun təmin edilməsi cinayət prosesinin konstitusion prinsipi kimi***» adlanan 3.1-ci paraqrafında aparılmış tədqiqatın nəticələri göstərir ki, cinayət-prosessual funksiya kimi müdafiə, cinayət məsuliyyətinə cəlb edilməsi məsələsinə baxılan şəxsin hüquq və qanuni maraqlarının müdafiəsi, ona bəraət verən, yaxud onun məsuliyyətini yüngülləşdirən halların müəyyən edilməsi üzrə fəaliyyətin həyata keçirilməsindən ibarətdir. Müdafiə cinayət təqibinə verilən reaksiya kimi onun yarandığı yerdə mövcud olur. Başqa sözlə desək, müdafiə funksiyası – müdafiə tərəfindən olan cinayət prosesi iştirakçılarının qarşıda duran məqsədlərə çatmağa yönəlmiş fəaliyyət istiqamətidir. Müdafiənin prosessual funksiya kimi başa düşülməsi bu fəaliyyətin müəyyən bir nəticəyə nail olunması üçün göstərildiyini vurğulayır.

Nəzərə almaq lazımdır ki, nə Konstitusiyada, nə ölkəmizin qoşulduğu beynəlxalq sənədlərdə, nə də sahəvi qanunvericilik aktı olan CPM-də «*şübhəli bilinən və təqsirləndirilən şəxslərin müdafiə*

hüququ» anlayışı müəyyən olunmur. Odur ki, şübhəli bilinən və təqsirləndirilən şəxslərin müdafiə hüququ dedikdə, nəyi başa düşmək lazımdır sualına cavab axtarmaq lazım gəlir. Təəssüflə qeyd etməliyik ki, müdafiə hüququ anlayışı və onun həyata keçirilməsi ilə bağlı məsələlərin şərhinə Ali Məhkəmə tərəfindən kifayət qədər diqqət yetirilmir. Belə ki, müdafiə hüququna dair qanunvericilik normalarının tətbiqi təcrübəsi Ali Məhkəmənin Plenumunda sonuncu dəfə ancaq 2 dekabr 1994-cü ildə müzakirə mövzusu olmuşdur[10]. Bundan sonra Konstitusiyanın, yeni CM və CPM-in qəbul edilməsinə baxmayaraq, Plenumun qeyd olunan problemlə bağlı Qərarı dəyişməz qalır. Plenumun «Şərəf və ləyaqətin müdafiəsi barədə qanunvericiliyin məhkəmələr tərəfindən tətbiq edilməsi təcrübəsi haqqında» olan 14 may 1999-cu il tarixli Qərarı da analoji xarakter daşıyır[11].

Müvafiq qanunvericilik normalarının və nəzəri fikirlərin təhlili belə deməyə əsas verir ki, «müdafiə hüququnun təmin edilməsi» anlayışı «müdafiə hüququ» anlayışından fərqli və daha geniş anlayışdır. Konstitusiyada təsbit olunmuş müdafiə hüququnun təmin edilməsi dedikdə, şübhəli bilinən və təqsirləndirilən şəxslərə cinayət işi üzrə icraat zamanı onların qanuni maraqlarının müdafiəsi üçün kompleks prosessual hüquqların verilməsi və eyni zamanda cinayət prosesini həyata keçirən dövlət orqanlarına və onların vəzifəli şəxslərinə həmin hüquqların həyata keçirilməsi üzrə tədbirlərin görülməsi vəzifəsinin həvalə edilməsini tələb edən cinayət prosesinin konstitusiya prinsipi başa düşülməlidir.

Rusiyalı müəllif A.V.Orlov təqsirləndirilən şəxsin müdafiə hüququnu təmin edən bütün konstitusiya normalarını şərti olaraq iki qrupa, yəni birbaşa və dolayı təsir qüvvəli normalara bölür. İkinci qrupa daxil olan

---

[10] *«Müttəhimin müdafiə hüququnu təmin edən qanunların məhkəmələr tərəfindən tətbiq edilməsi təcrübəsi haqqinda» Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarı, № 6, 2 dekabr 1994-cü il: [Elektron resurs] / URL: https:// supremecourt. gov.az/storage/pages/580/plenum-id-54.pdf*

[11] *«Şərəf və ləyaqətin müdafiəsi barədə qanunvericiliyin məhkəmələr tərəfindən tətbiq edilməsi təcrübəsi haqqinda» Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarı, № 7, 14 may 1999-cu il: [Elektron resurs] / URL: https://supremecourt. gov.az/storage/pages/567/plenum-id-42.pdf*

normaların içində isə dolaya təsir qüvvəli normalar yarımqrupu ilə yanaşı, ümumi xarakterli (*deklarativ və definitiv*) normalar yarımqrupunu fərqləndirməyi zəruri hesab edir və qeyd edir ki, konstitusiya normalarının yuxarıda göstərildiyi qaydada qruplara bölünməsi müstəsna olaraq tədqiqatın aparılmasının asanlaşdırılması üçün təklif olunur və bir sıra səbəblərə görə bu sözün əsl mənəsında ciddi elmi təsnifat adlandırıla bilməz[12].

Müəllifin özünün də qeyd etdiyi kimi, konstitusiya normalarının göstərilən qaydada qruplaşdırılması üçün ancaq iki əsas tətbiq olunmuşdur ki, bu da təsnifatın ən yüksək tipoloji forma kimi başa düşülməsini istisna edir.

Digər tərəfdən, təsnifat tədqiq olunan obyektlərin siniflər üzrə tam bölünməsini nəzərdə tutur. Bu tədqiqat işi çərçifəsində isə ancaq şübhəli və təqsirləndirilən şəxslərin müdafiə imkanına təminat verən və yalnız tədqiqatın asanlaşdırılması üçün qruplara bölünməsi təklif edilən əsas normaların öyrənilməsi qarşıya məqsəd qoyulmuşdur.

Konkret konstitusiya normasının məzmununun məcmusunu (onda nəzərdə tutulmuş hüquqları, subyektlərin vəzifələrini, yaxud əsas hüquqi bəyannamə və anlayışları) və onun müddəasının özündə (birbaşa) və ya müvafiq sahəvi normativ aktda (dolayı) nəzərdə tutulan həyata keçirilmə mexanizmini nəzərə alaraq təqsirləndirilən (şübhəli bilinən) şəxsin müdafiə hüququnu təmin edən bütün konstitusiya normalarını həmin müəllifin qeyd etdiyi kimi iki deyil, şərti olaraq aşağıda göstərilən ardıcıllıqla üç qrupa bölünməsini məqsədəuyğun hesab edirik: ümumi xarakterli normalar; bilavasitə təsir qüvvəli normalar; dolayı təsir qüvvəli normalar. Beləliklə, yuxarıda göstərilənlərə əsaslanaraq, konstitusiyanın müddəalarının həyata keçirilmə mexanizmini təhlil etmək və onların təsir qüvvəsini qiymətləndirərək müəyyən nəticəyə gəlmək məqsədilə Konstitusiyanın təqsirləndirilən (şübhəli bilinən) şəxsin müdafiə hüququnun təmin edilməsi üçün nəzərdə tutulmuş bütün konstitusiya normalarını şərti olaraq qeyd olunan qaydada qruplaşdırmağı məqsədəuyğun hesab edilir.

---

[12] *Орлов А.В. Конституционные нормы, обеспечивающие обвиняемому право на защиту в российском уголовном процессе. / Диссертация кандидата юридических наук. – Саратов, – 2004. – с. 83.*

Dissertasiyanın III fəslinin «***Cinayət prosesində təqsirləndirilən şəxsin müdafiə hüququnu təmin edən konstitusiya normalarının hüquqi təhlili***» adlanan 3.2-ci paraqrafında konstitusiya normalarının şərti olaraq, ümumi xarakterli, bilavasitə təsir qüvvəli və dolayı təsir qüvvəli normalar kimi üç qrupa bölündüyü və «*Ümumi xarakterli konstitusiya normaları*» adlandırdığımız 3.2.1-ci bənd çərçivəsində həmin qrupa aid edilən normaların bir qədər ətraflı şərh edilməsinin məqsədəuyğun hesab olunduğu qeyd olunur. Daha sonra Azərbaycan Respublikasının cinayət prosesində təqsirləndirilən (şübhəli bilinən) şəxsin müdafiə hüququnun təmin edilməsinə yönəlmiş ümumi konstitusiya normaları sırasına Konstitusiyanın 12, 24, 67 və 71-ci maddələrinin ayrı-ayrı müddəalarının aid edilməli olduğu vurğulanır və həmin normalar müvafiq ardıcıllıqla təhlil edilir. Sonda müəllif belə nəticəyə gəlir ki, bu müddəaların, eləcə də digər konstitusiya normalarının və cinayət-prosessual qanunvericiliyin müvafiq müddəaları ilə birlikdə nəzərə alınması, insan və vətəndaş hüquq və azadlıqlarının qorunmasına dair qanunvericiliyin inkişafı üçün üstün sahələri düzgün seçməyə, eləcə də dövlətin onlarla bağlı tətbiq edə biləcəyi məhdudiyyətləri düzgün müəyyənləşdirməyə imkan verir[13].

Həmin paraqrafın «*Bilavasitə təsir qüvvəli konstitusiya normaları*» adlanan 3.2.2-ci bəndində qeyd edilir ki, bilavasitə təsir qüvvəli konstitusiya normaları dedikdə, hər şeydən əvvəl, sahəvi qanunvericilikdə əlavə şərh edilməsinə və konkretləşdirilməsinə zərurət olmayan normalar başa düşülür. Bu normaların xüsusi xarakterli və bütün hüquq sistemi üçün əhəmiyyətli olması mübahisəsizdir. Belə ki, onlar Konstitusiyanın konkret hüquq münasibətlərinə bilavasitə və qeyd-şərtsiz tənzimləyici təsirini müəyyən edirlər. Həmin normalar Konstitusiya ilə bəyan edilmiş hüquqlarla onların həyata keçirilməsi prosesi arasında körpü rolunu oynayırlar. Bu fikrə aydınlıq gətirilməsi və onun əsaslandırılması məqsədilə Konstitusiyanın həmin qrupa aid edilən 25, 66, 71 və 147-ci maddələrinin müvafiq müddəaları ayrı-ayrılıqda təhlil edilir və bu da öz növbəsində aşağıda göstərilən yekun nəticələrin formalaşdırılmasına imkan verir:

[13] *Əliyev, A.C. Azərbaycan Respublikasının cinayət prosesində təqsirləndirilən şəxsin müdafiə hüququnu təmin edən ümumi xarakterli konstitusiya normaları // – Bakı: Qanun, – 2021. № 06(320), – s. 20.*

1) Konstitusiyasının 25-ci maddəsində nəzərdə tutulan hamının qanun və məhkəmə qarşısında bərabərliyi prinsipinə təqsirləndirilən və şübhəli bilinən şəxslərin müdafiə hüququnun təmin edilməsi prizmasından yanaşılması belə nəticəyə gəlməyə əsas verir ki, cinayət prosesinin digər rəhbər prinsipləri ilə sıx bağlı olan hamının qanun və məhkəmə qarşısında bərabərliyi prinsipi əlavə şərh edilməsi zəruri olmayan müstəqil prinsip, müvafiq hüquqi münasibətləri tənzimləyən bilavasitə təsir qüvvəli konstitusiya normasıdır.

2) Konstitusiyanın 66-cı maddəsinin bilavasitə təsir qüvvəsinə malik olması şübhəsizdir. Lakin, yuxarıda qeyd olunduğu kimi, həmin konstitusiya normasının bilavasitə tətbiqi zamanı öz həllini tələb edən, ancaq bu bənd çərçivəsində əhatə edilib cavablandırılması mümkün olmayan bir sıra suallar ortaya çıxır. CPM-in şahid toxunulmazlığına dair 20-ci maddəsi də mövcud problemlərin aradan qaldırılması üçün yetərli deyil. Belə ki, göstərilən maddənin mətni bəsit və qüsurludur. Odur ki, Konstitusiyasının 66-cı maddəsinin ayrıca tədqiqat işi çərçivəsində təhlil edilməsini, onun tətbiqi ilə bağlı ortaya çıxa biləcək bütün çətinlikləri, onların aradan qaldırılması yollarını, şahid toxunulmazlığından istifadə etmək hüququna malik olan şəxslərin dairəsinin xüsusiyyətlərini və bu hüququn həyata keçirilməsi qaydasını müəyyən etməklə, CPM-in 20-ci maddəsinə müvafiq dəyişiklik və əlavələrin edilməsi məqsədəuyğun hesab edilir[14].

3) Konstitusiyasının 71-ci maddəsinin II hissəsi hər kəsin hüquq və azadlıqlarının ancaq Konstitusiyada və qanunlarda müəyyən edilmiş əsaslarla, habelə digərlərinin hüquq və azadlıqları ilə məhdudlaşdığını müəyyin edir, həmin maddənin III hissəsi isə insan və vətəndaş hüquq və azadlıqlarının həyata keçirilməsinin konkret hallarda və şəraitdə Azərbaycan Respublikasının beynəlxalq öhdəliklərini nəzərə almaqla qismən və müvəqqəti məhdudlaşdırılmasının mümkünlüyünü nəzərdə tutur.

---

[14] *Əliyev, A.C. Qohumlar əleyhinə ifadə verməyə məcbur etmənin yolverilməzliyi prinsipi insan və vətəndaş hüquq və azadlıqlarinin müdafiəsi kontekstində // – Bakı: Ümumdünya insan hüquqları Bəyannaməsinin 74 illiyinə həsr olunmuş «Müasir dövrdə insan hüquqlarının aktual problemləri" mövzusunda beynəlxalq elmi-praktik konfransın materialları, – 2022 (27 dekabr), – s. 148.*

Göründüyü kimi, hüquq və azadlıqların məhdudlaşdırılması ilə bağlı məsələlər bilavasitə təsir qüvvəli Konstitusiya normaları kimi, Konstitusiyanın 71-ci maddəsinin II və III hissələrində aydın təfsir olunmuşdur. Odur ki, onların sahəvi qanunvericilikdə əlavə şərh edilməsi zəruri deyil.

4) Konstitusiyanın Azərbaycan Respublikasında ən yüksək və birbaşa hüquqi qüvvəyə malik olduğunun, eləcə də qanunvericilik sisteminin əsasını təşkil etdiyinin 147-ci maddədə bəyan edilməsi böyük praktiki əhəmiyyət kəsb edir. Belə ki, ən yüksək və birbaşa hüquqi qüvvəyə malik olması Konstitusiyanın ictimai həyatın və dövlət quruculuğunun bütün sahələrində sosial və siyasi münasibətlərə real təsir göstərən fenomen olduğunu təsdiq edir. Onun qanunvericilik sisteminin əsasını təşkil etməsi isə dövlətin qanunvericilik fəaliyyətinin dəqiq tənzimlənməsinə, Konstitusiya ilə digər hüquqi aktlar arasında ziddiyyətlərin yaranmasının istisna edilməsinə şərait yaradır ki, bütün bunlar da 147-ci maddənin əlavə şərh edilməsinə zərurət olmayan bilavasitə təsir qüvvəli norma olduğunu bir daha təsdiq edir.

Həmin paraqrafın «*Dolayı təsir qüvvəli konstitusiya normaları*» adlanan 3.2.3-cü bəndində Konstitusiyanın 26, 27, 28, 29, 32, 33, 46, 60, 61, 63, 64, 65, 68, 127 və 130-cu maddələrinin ayrı-ayrı müddəaları digər qanunvericilik aktlarının müvafiq normaları ilə qarşılıqlı olaraq təhlil edilir, mövcüd ziddiyyətlər, boşluqlar və qüsurlar göstərilir və qanunvericiliyin təkmilləşdirilməsinin zəruriliyi aşağıdakı kimi əsaslandırılır:

1) Konstitusiyanın 26-cı maddəsini təhlili göstərir ki, həmin maddədə nəzərdə tutulan hər kəsin qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquq və azadlıqlarını müdafiə etmək hüququna malik olmasına dair müddəa CPM-in şübhəli bilinən və təqsirləndirilən şəxslərin hüquqlarının müdafiəsinə dair hissədə (CPM-in 19-cu maddəsi) kifayət qədər konkretləşdirilməmiş, proses iştirakçılarının hüquq və vəzifələrinə dair hissədə ətraflı şərh olunmamışdır[15]. Odur ki, həmin maddənin dissertasiyanın nəticə hissəsinin 3.2-a bəndində qeyd olunduğu kimi yeni redaksiyada verilməsi təklif olunur.

[15] *Əliyev, A.C. Hüquq və azadlıqların qanunla qadağan olunmayan üsul və vasitələrlə müdafiəsinə dair konstitusiya normasının cinayət-prosessual qanunvericilikdə konkretləşdirilməsi barədə // – Bakı: Qanun, – 2022. № 01(327), – s. 84.*

2) 10 fevlal 1998-ci il tarixli Azərbaycan Respublikası Qanunu ilə Azərbaycan Respublikasında ölüm cəzası ləğv edildikdən sonra Konstitusiyanın 27-ci maddəsinin II və III hissələrilə cinayət qanunvericiliyi arasında uyğunsuzluq yaranmışdır. Belə ki, həmin Qanunla Azərbaycan Respublikasında ölüm cəzasının tam ləğv edilməsinə, 30 dekabr 1999-cu il tarixli Azərbaycan Respublikası Qanunu ilə qəbul edilmiş yeni Cinayət Məcəlləsində ölüm cəzası kimi cəza növünün nəzərdə tutulmamasına və bundan sonra, 2002, 2009 və 2016-cı illərdə Konstitusiyaya çoxsaylı əlavə və dəyişikliklərin ediməsinə baxmayaraq Konstitusiyanın 27-ci maddəsinin II və III hissələri əvvəlki məzmunda qalmışdır. Beləliklə olüm cəzasının ləğv edilməsi nəticəsində Konstitusiyanın 27-ci maddəsinin III hissəsi faktiki olaraq işləməyən qanun normasına çevrilmişdir. Hesab edirlir ki, qeyd olunan ziddiyyətlərin aradan qaldırılması üçün Konstitusiyanın 27-ci maddəsinin II hissəsinin mətnindən «*məhkəmənin qanuni qüvvəyə minmiş hökmünə əsasən ölüm cəzasının tətbiqi*» ifadəsinin, həmin maddənin III hissəsinin mətnindən isə «*tam ləğv edilənədək*» ifadəsinin xaric edilməsi və həmin hissələrin dissertasiyanın nəticə hissəsinin 3.3-a və 3.3-b bəndlərində qeyd olunduğu kimi yeni redaksiyada verilməsi zəruridir[16].

3) Konstitusiyanın 28-ci maddəsini təhlilinə və müvafiq məhkəmə təcrübəsinə *əsaslanan* müəllif belə nəticəyə gəlir ki, Konstitusiya ilə bəyan edilmiş azadlıq hüququnun həyata keçirilməsi bəzi hallarda problemsiz ötüşmür. Avropa İnsan Hüquqları Məhkəməsinin təcrübəsi göstırir ki, *bəzi hallarda* Azərbaycan Respublikasının məhkəmələrində ayrı-ayrı şəxslərin Konstitusiya ilə bəyan edilmiş azadlıq hüququnun pozulması hallarına yol verilir ki, bu da belə şəxslərin Avropa İnsan Hüquqları Məhkəməsinə ərizə ilə müraciət etməsinə səbəb olur.

[16] *Əliyev, A.C. Azərbaycan Respublikasının Konstitusiyası ilə bəyan olunmuş yaşamaq hüququna dair normanin bəzi aspektləri // – Bakı: DİN Polis Akademiyasının Xəbərləri, – 2019. № 3(23), – s. 87; Алиев, А.Д. Право на жизнь: сравнительный анализ соответствующих норм Конституций Азербайджанской Республики и Российской Федерации // – Москва: Социально-политические науки, – 2020. № 1, – с. 28-32.*

Məsələn, B.Bayramov və başqalarının (daha 5 nəfər) Azərbaycana qarşı ərizəsi üzrə, İ.Hüseynov və başqalarının (daha 5 nəfər) Azərbaycana qarşı ərizələri üzrə, R.Hacıbəyli və basqalarının (daha 12 nəfər) Azərbaycana qarsı ərizələri üzrə işə baxan Avropa İnsan Hüquqları Məhkəməsi ərizəçilərə münasibətdə «İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi haqqında» Avropa Konvensiyasının 5, 6 və 11-ci maddələrinin pozulduğuna əsaslanaraq, özünün 30 iyun 2016-cı il, 24 noyabr 2016-cı il və 16 fevral 2017-ci il tarixli qərarları ilə qeyd olunan ərizələri müəyyən hissədə təmin etmiş, mənəvi ziyana, məhkəmə xərclərinə və digər məsrəflər görə Məhkəmənin müəyyən etdiyi məbləğdə pul vəsaitlərinin ərizəçilərə ödənilməsini cavabdeh olan Azərbaycan Respublikasına həvalə etmişdir[17].

4) Konstitusiyanın 29-cu maddəsini təhlili göstərir ki, həmin maddənin tələblərinə məhkəmələr, əsasən də Ali və Konstitusiya Məhkəmələri tərəfindən xüsusi diqqət yetirilir. Ali Məhkəmənin Cinayət Kollegiyasının 22.12.2022-ci il (İş № 1(102)-1804/ 2022) tarixli və 22.02.2022-ci il (iş № 1(102)-235/2023) tarixli qərarlarını, Konstitusiya Məhkəməsinin Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 32-ci maddəsinin Konstitusiyanın 29-cu maddəsinin IV hissəsinə uyğunluğu haqqında 12.01.1999-cu il tarixli, Mülki Məcəllənin

[17] *Bayramov və başqaları Azərbaycana qarşı (şikayətçilər: B.Bayramov, M.Məcidli, V.İsgəndərov, İ.İsrafilov, H.Ağayev, R.Quliyev – ərizə №:74609) işi üzrə İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin (Beşinci Bölmə) 16 fevral 2017-ci il tarixli Qərarı: [Elektron resurs] / URL: https://supremecourt. gov.az/ storage/pages/200/ bayramov-ve-bashqalari-azerbaycana-qarshi.pdf; Hüseynov və başqaları Azərbaycana qarşı (ərizəçilər: İ.Hüseynov, T.Mirələmli, B.Həsənov, T.Dadaşov, T.Əlisoy, A.Ruşanov – ərizələr No:34262/14, No:35948/14, No:38276/14, No:56232/14, No:62138/14, No:63655/14) işi üzrə İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin (Beşinci Bölmə) 24 noyabr 2016-cı il tarixli Qərarı: [Elektron resurs] / URL: https:// supremecourt.gov. az/storage/ pages/609/ huseynov-ve-bashqalari-azerbaycana-qarshi.pdf; Hacıbəyli və basqaları Azərbaycana qarsı (ərizəçilər: R.Hacıbəyli, E.Budaqov, V.Xaliqov, Ə.Qurbanlı, O.Carçıyev, H.Fərhadlı, E.Carullayev, M.İbrahim, İ.Kərimov, Ş.Abbasov, T.Mirələmli, Z.Eyvazov B.Həsənov) işi üzrə İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin (Beşinci Bölmə) 30 iyun 2016-cı il tarixli Qərarı: [Elektron resurs] / URL: https: //supremecourt. gov.az/storage/ pages/614/hacibeyli-ve-basqalari-azerbaycana-qarshi.pdf*

1193-cü maddəsinin Konstitusiyanın 25-ci maddəsinin I, III, IV və V hissələrinə, 26-cı maddəsinin II hissəsinə, 29-cu maddəsinin I və VII hissələrinə, 71-ci maddəsinin I və II hissələrinə və 149-cu maddəsinin I və III hissələrinə uyğunluğunun yoxlanılmasına dair 19.02.2021-ci il tarixli və F.Nəcəfovanın şikayəti üzrə Ali Məhkəmənin Mülki Kollegiyasının 18 noyabr 2021-ci il tarixli qərarının Konstitusiyaya və qanunlara uyğunluğunun yoxlanılmasına dair 03 mart 2023-cü il tarixli qərarlarını buna misal göstərmək olar[18].

5) Konstitusiyanın 32-ci maddəsini təhlil edən müəllif hesab edir ki, hər kəsin azadlıq və şəxsi toxunulmazlıq hüququ milli qanunvericilikdə olduğu kimi, beynəlxaiq hüquqda da təsbit olunur.

6) Konstitusiyanın 33-cü maddəsini təhlil edən müəllifin fikrincə, cinayət prosesinin gedişində təqsirləndirilən (şübhəli bilinən) şəxsin mülkiyyət və mənzil hüquqlarının təmin edilməsi ilə bağlı məsələləri həll etməli olan vəzifəli şəxslərin həmin vəzifələrin icrasından yayınmasına və ya lazımınca yerinə yetirməməsinə görə məsuliyyəti qanunvericilikdə nəzərdə tutulmur. Elə bu səbəbdən də təqsirləndirilən (şübhəli bilinən)

---

[18] *Azərbaycan Respublikası Ali Məhkəməsi Cinayət Kollegiyasının 22 dekabr 2022-ci il tarixli qərarı (iş № 1(102)-1804/2022): [Elektron resurs] / URL: https://sc. supremecourt.gov.az/ storage/Cinayet/2022/ 1_1804+22.12.2022.pdf; Azərbaycan Respublikası Ali Məhkəməsi Cinayət Kollegiyasının 22 fevral 2023-cü il tarixli qərarı (iş № 1(102)-235/2023): [Elektron resurs] / URL: https://sc. supremecourt.gov.az/ storage/ Cinayet/2023/ 1_235+22.02.2023.pdf; Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 12 yanvar 1999-cu il tarixli QƏRARI. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 32-ci maddəsinin Azərbaycan Respublikası Konstitusiyasının 29-cu maddəsinin IV hissəsinə uyğunluğu haqqında: [Elektron resurs] / URL: https://constcourt.gov.az/az/decision/15; Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 19 fevral 2021-ci il tarixli Qərarı. 19.02.21 AR MM-in 1193-cü mad. AR Konstitusiyasının 25-ci mad. I, III, IV və V hissələrinə, 26-cı mad. II hissəsinə, 29-cu mad. I və VII hissələrinə, 71-ci mad. I və II hissələrinə və 149-cu mad. I və III hissələrinə uyğunluğunun yoxlanılmasına dair: [Elektron resurs] / URL: https://constcourt.gov.az/az/decision/1203; Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 3 mart 2023-ci il tarixli Qərarı. F.Nəcəfovanın şikayəti üzrə Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının 18 noyabr 2021-ci il tarixli qərarının Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğunluğunun yoxlanılmasına dair: [Elektron resurs] / URL: https://constcourt.gov.az/az/decision/1345*

və ya məhkum edilmiş şəxslərin əmlakına cinayət prosesini həyata keçirən orqanların və müvafiq vəzifəli şəxslərin təqsiri üzündən zərər dəydiyi hallarda həmin şəxslər zərərin ödənilməsinə nail olmaq üçün mülki prosessual qaydada məhkəməyə müraciət etməyə məcbur olurlar. Lakin belə hallarda da problemin həlli cidd müqavimətlə üzləşir. Odur ki, CPM-in müvafiq normalarına əlavə və düzəlişlər edilməsi, beləliklə də onlar təkmilləşdirilməsi məqsədəuyğun hesab olunur.

7) Konstitusiyanın 46-cı maddəsini təhlil göstərir ki, müdafiə hüququnun təmin edilməsi baxımından xüsusilə əhəmiyyətli olan bu konstitusiya norması CPM-in 13-cü və digər madələrində bir daha konkretləşdirilir. CPM-in 15.2-ci maddəsi ilə müəyyən edildiyi kimi, cinayət təqibinin gedişində şəxsə işgəncə verilməsi və onun digər qanunsuz hərəkətlərə məruz qoyulması qadağan edilir[19]. 125.2.2-ci maddəyə əsasən, zorakılıq, hədə-qorxu, aldatma, işgəncə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan hərəkətlərin tətbiq edilməsi ilə əldə edilmiş məlumatlar, sənədlər və digər əşyalar cinayət işi üzrə sübut kimi qəbul edilmir.

8) Konstitusiyanın 60-cı maddəsi müdafiə hüququnun təmin edilməsi baxımından böyük əhəmiyyət kəsb edir. Belə ki, həmin maddənin I hissəsilə hər kəsin hüquq və azadlıqlarının inzibati qaydada və məhkəmədə müdafiəsinə təminat verilir. Hər kəsin onun işinə qərəzsiz yanaşılması, inzibati icraat və məhkəmə prisesində həmin işə ağlabatab müddətdə baxılması hüququna malik olduğu II hissədə bəyan edilir. III hissədə hər kəsin inzibati icraat və məhkəmə prosesində dinlənilmək hüququ təsbit olunur. IV hissəsilə müəyyən edildiyi kimi, «*hər kəs dövlət orqanlarının, siyasi partiyaların, hüquqi şəxslərin, bələdiyyələrin və vəzifəli şəxslərin hərəkətlərindən və hərəkətsizliyindən ... məhkəməyə şikayət edə bilər*».

CPM-in 84, 85, 86, 91 və digər maddələrində müəyyən qüsurların olması təqsirləndirilən şəxsin müdafiə hüququnun lazımi qədəq təmin edilməsini çətinləşdirir. Həmin çatışmazlıqların aradan qaldırılması,

[19] *Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi. – Bakı: Qanun, – 2022. – S. 58-59.*

məqsədilə CPM-ə dissertasiyanın nəticə hissəsində göstərilən əlavə və dəyişikliklərin edilməsini məqsədəuyğun hesab edilir[20].

9) Konstitusiyanın 61-cı maddəsinin I hissəsində göstəriləcək hüquqi yardımın "*yüksək keyfiyyətli*" olmasından bəhs olunur. Konstitusiyada bu anlayışın işlədilməsi Vəkillik haqqında Qanunun 3-cü maddəsində də "*fiziki və hüquqi şəxslərə yüksək keyfiyyətli hüquqi yardım göstərilməsi ifadəsinin işlədilməsinə*" səbəb olmuşdur. Zənnimizcə, hər iki halda "*yüksək keyfiyyətli*" deyil, "*ixtisaslı*" termininin işlədilməsi zəruridir. Belə ki, "*keyfiyyət*" sözü istehsal və xidmət sahələri üçün səciyyəvidir. Lakin hüququ yardımın səviyyə göstəricisi olmağa yararlı deyil.

Ümumiyyətlə dissertasiyanın 3.2-ci paraqrafının 3.2.3-cü bəndinin Konstitusiyanın 61-ci maddəsinin təhlilinə dair 9-cu hissəsində qeyd olunan qüsurlu cəhətlərin aradan qaldırılması məqsədilə qanunvericiliyə dissertasiyanın nəticə hissəsinin 3.4-cü bəndində göstərilən müvafiq dəyişikliklərin edilməsi təklif olunur.

10) Konstitusiyanın 63-cü maddəsinin I hissəsinin «*hər kəsin təqsirsizlik prezumpsiyası hüququ vardır*» məzmunlu cümləsi mətnə lüzumsuz olaraq sonradan daxil edilmişdir. Belə ki, həmin hissənin ikinci cümləsinin məzmunu təqsirsizlik prezumpsiyasının əsil mahiyyətini ifadə edir, təqsirsizlik prezumpsiyasının cinayət törətməkdə təqsirləndirilən bütün şəxslərə şamil edildiyini göstərir. Odur ki, cinayət törətməkdə ittiham olunmayan şəxslərin təqsirsizlik prezumpsiyasına malik olmasının vurğulanması zəruri deyil. Müvafiq beynəlxalq sənədlərin məzmunu və ifadə tərzi də bu fikrin əsaslı olduğunu təsdiq edir.

Təhlil olunan hissəsinin məzmunu təqsirsizlik prezumpsiyası prinsipinə riayət olunmasının iki əlamətini müəyyən edir: a) şəxsin təqsirinin qanunla nəzərdə tutulan qaydada sübuta yetirilməsi; b) bu

---

[20] *Əliyev, A.C. Müdafiə hüququnun təmin olunmasına dair Konstitusiya norması və cinayət prosesində təqsirləndirilən şəxsin müdafiə hüququ // – Bakı: Hüquq elminin müasir problemləri: Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin yeni tendensiyaları» mövzusunda V Respublika elmi-nəzəri konfransın materialları, – 2015 (7-8 may), – s. 140-145.*

barədə məhkəmənin qanuni qüvvəyə minmiş hökmünün olması. Zənnimizcə bu kimi yazılış tərzi, mətnin dəqiq başa düşülməsini çətinləşdirir, əlavə şərh edilməsi tələb olunan suallar doğurur. Məsələn, nə məqsədlə təqsirin qanunla nəzərdə tutulan qaydada sübuta yetirilməsi vurğulanır, yoxsa sübutetmənin başqa qaydası da mövcuddur?

Onu da qeyd etmək lazımdır ki, Konstitusiyanın 63-cü maddəsinin V hisssi həmin maddənin I hissəsinin ikinci cümləsilə ziddiyyət təşkil edir. Belə ki, I hissədə şəxsin təqsirli sayılması barədə məhkəmənin qanuni qüvvəyə minmiş hökmünün olmasilə şərtlənirsə, V hissədə sadəcə olaraq, məhkəmə hökmünün olması həlledici hal kimi nəzərdə tutulur. Beləliklə, yuxarıda göstərilən tənqidi fikirləri nəzərə almaqla, mövcud qüsurların və ziddiyyətli halların aradan qaldırılması məqsədilə 63-cü maddəyə dissertasiyanın nəticə hissəsinin 3.5-ci bəndində göstərilən əlavə və dəyişikliklərin edilməsini zəruri hesab edilir[21].

11) Konstitusiyanın 64-cü maddəsini (*Bir cinayətə görə təkrarən məhkum etməyə yol verilməməsi*) təhlil edən müəllif belə nəticəyə gəlir ki, təhlil olunan konstitusiya normasının adında və mətnində «bir» sözünün işlədilməsi onun mahiyyətinin düzgün başa düşülməsini bir qədər çətinləşdirir. Bu qüsurlu cəhətin aradan qaldırılması məqsədilə «bir» sözünün hər iki halda «eyni» sözü ilə əvəz olunmasını zəruri hesab edilir.

12) Konstitusiyanın 65-ci maddəsində nəzərdə tutulan hər kəsin məhkəməyə təkrar müraciət etmək hüququ bütün yuxarı məhkəmə instansiyalarında, eləcə də Konstitusiya Məhkəməsində təmin olunur ki, bu da həmin hüququ həyata keçirilməsinin bariz nümunəsidir.

13) Konstitusiyanın 68-ci maddəsi ilə bağlı qeyd edilir ki, dövlət qulluqçularının məsuliyyətinin mülki məsuliyyətlə məhdudlaşdırılması anlaşılmazlıq yaradır. Belə ki, insan və vətəndaş hüquq və azadlıqlarına pozulması şəraitində dövlət qulluqçularının qanuna zidd hərəkət və hərəkətsizliyi vəzifə səlahiyyətlərindən sui-istifadə, vəzifə səlahiyyətlərini aşma, vəzifə saxtakarlığı, səhlənkarlıq və digər bu

[21] *Əliyev, A.C. Təqsirsizlik prezumpsiyası Azərbaycan Respublikasında ədalət mühakiməsinin həyata keçirilməsinin Konstitusiya prinsipi kimi // – Bakı: DİN Polis Akademiyasının Xəbərləri, – 2019. № 2(22), – s. 62-67.*

kimi cinayət əməllərini də əhatə edə bilər. Belə olan halda onların qanuna zidd hərəkət və hərəkətsizliyinin mahiyyətini, xaratrerini və səbəb olduğu zərərli nəticənin həcmini bilmədən buna görə onların mülki məsuliyyət daşıdıqlarının qabaqcadan bəyan edilməsi yolverilməz hesab edilməli, qanun qarşısında bərabərlik, təqsirə görə məsuliyyət, ədalət və humanizm prinsiplərinə zidd hal kimi qiymətləndirilməlidir. Odur ki, Konstitusiyasının 68-ci maddəsinin IV hissəsində «*mülki*» sözünün «*Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada*» sözləri ilə əvəz olunması məqsədəuyğun hesab edilir.

14) Konstitusiyanın 127-ci maddəsinin V hissəsilə məhkəmə icraatının açıq aparıldığı bəyan edildiyi halda, məhkəmələrin bütün qərarlarının qəbul olunduğu gündən bir aydan gec olmayaraq anonimləşdirilməklə elektron qaydada yayılmasını müəyyən edən normanın «Məhkəmələr və hakimlər haqqında» Azərbaycan Respublikası Qanununun 5-ci maddəsində nəzərdə tutulması mahiyyətcə ziddiyyətli və əsassızdır. Belə ki, aşkarlıq şəraitində açıq məhkəmə icraatında qəbul edilən və açıq elan olunan məhkəmə qərarlarının sonradan anonimləşdirilməsinin, yəni anlaşılmaz, istifadə üçün yararsız hala salınmasının məqsədini başa düşmək mümkün deyil. Təqdirəlayiq hal kimi qeyd edilir ki, Konstitusiya Məhkəməsinin qərarları heç bir dəyişiklik edilmədən, anonimləşdirilmədən, tam həcmdə müvafiq dövlət qəzetlərində və «Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı»nda dərc edilir, habelə onun rəsmi internet saytında yerləşdirilir. Bu da onların məzmunu ilə tanış olmağa, elmi və digər qanuni məqsədlər üçün onlardan məhdudiyyətsiz istifadə etməyə imkan verir. Lakin bundan fərqli olaraq digər məhkəmə qərarları anonimləşdirilir, məhkəmə tərkibi istisna olunmaqla, digər proses iştirakçılarının adları kodlaşdırılır (məsələn, XX. XX., X1, X2, X3 və s.) ki, bunun da nəticəsində hansı ifadənin kimə aid olduğunu, kimin hansi sübuta istinad etdiyini və s. müəyyən etmək mümkün olmur.

Açıq məhkəmə icraatında qəbul olunaraq açıq elan edilmiş məhkəmə qərarlarının anonimləşdirilməklə yayılması Konstitusiyanın 127-ci maddəsinin V hissəsinə və CPM-nin 27.1-ci maddəsinə zidd olmaqla yanaşı, müdafiə hüququnun həyata keçirilməsinə maneə yaradan ciddi

problemdir. Hesab edilir ki, məhkəmə qərarlarının anonimləşdirilməklə yayılmasını müəyyən edən norma «Məhkəmələr və hakimlər haqqında» Qanununun 5-ci maddəsinin mətnindən xaric edilməli, açıq məhkəmə icraatında qəbul olunmuş və açıq elan edilmiş məhkəmə qərarları heç bir dəyişiklik edilmədən müvafiq qaydada yayılmalıdır.

15) Konstitusiyanın 127-ci maddəsinin VI hissəsilə müəyyən edildiyi kimi, "*qanunda nəzərdə tutulmuş hallar istisna olmaqla, cinayət işlərinin qiyabi məhkəmə icraatına yol verilmir*".

Təqsirləndirilən şəxsin iştirakı olmadan məhkəmə baxışına CPM-nin 311-ci maddəsinin müddəaları ilə müəyyən edildiyi müstəsna hallarda yol verilir. Belə halda təqsirləndirilən şəxsin müdafiəçisinin məhkəmə iclasında iştirakı məcburidir.

16) Konstitusiyanın 127-ci maddəsinin VII hissəsində məhkəmə icraatının çəkişmə prinsipi əsasında həyata keçirilməsi nəzərdə tutulur.

Təəssüflə qeyd etməliyik ki, bolşeviklər hakimiyyətə gəldikdən sonra aşkarlıq və çəkişmə prinsiplərindən imtina edilmiş və repressiya xarakterli istintaq və məhkəmə proseslərinə üstünlük verilmişdir.

Onu da qeyd etməliyik ki, nə Konstitusiyada, nə də cinayət-prosessual qanunvericilikdə çəkişmə prinsipinin mahiyyəti açıqlanmır. Odur ki, çəkişmə prinsipinin mahiyyətini düzgün dərk edilməsi üçün tanınmış nəzəriyyəçilərin əsərlərinə müraciət etmək lazım gəlir.

M.S.Stroqoviç, N.N.Polyanski, O.V.Vişnevskaya A.D.Boykov və digər Rusiya alimləri çəkişmə prinsipi ilə bağlı mövqe nümayiş etdirmiş, bu prinsipə riayət olunmasının zəruriliyini əsaslandırdağa çalışmışlar.

Lakin O.V.Vişnevskayanın qeyd etdiyi kimi, çəkişmə prinsipini hədsiz dərəcədə tərifləmək və həmin prinsipin cinayət prosesində tətbiq olunmasının ədalət mühakiməsi aktının əsaslı və ədalətli olmasının təminatı üzrə bütün mürəkkəb məsələləri həll etdiyi qənaətinə gəlmək sadəlövhlük olar[22].

Müəllifin bu fikri ilə razılaşaraq qeyd etməliyik ki, çəkişmə prinsipinin cinayət prosesində tətbiq olunması ancaq cinayət

[22] *Вишневская О.В. Состязательная деятельность защитника на предварительном следствии. Диссертация кандидата юридических наук. – Казань, 2004. С. 20.*

mühakimə icraatının obyektivliyi, qərəzsizliyi və ədalətliliyi təmin olunduğu halda qanuni və əsaslı məhkəmə aktının qəbul edilməsinə xidmət edə bilər[23].

17) Konstitusiyanın hər kəsin pozulmuş hüquq və azadlıqlarının bərpası məqsədi ilə Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə şikayət vermək hüququnu müəyyən edən 130-cu maddəsinin V hissəsinin məzmunu göstərir ki, vətəndaşların hüquq və azadlıqlarının pozulması ilə bağlı Konstitusiya Məhkəməsinə şikayət vermək hüququnun Konstitusiyada nəzərdə tutulması hüquq və azadlıqlarının dövlət müdafiəsinin ən mühüm təminatıdır.

Dissertasiyanın III fəslinin «***Cinayət prosesində təqsirləndirilən (məhkum olunmuş) şəxsin müdafiə hüququnun həyata keçirilməsinin mərhələləri***» adlanan 3.3-cü paraqrafında cinayət prosesinin ayrı-ayrı mərhələlərində müdafiə fəaliyyəti təhlil olunur. İbtidai istintaq mərhələsində müdafiəçinin həyata keçərdiyi müdafiə fəaliyyətinin təhlilinə əsaslanan müəllif belə nəticəyə gəlirik ki, sübutetmə predmetinə daxil olan halların müəyyən edilməsi ilə bağlı müdafiəçinin obyektiv fəaliyyəti, şübhəsiz ki, istər ibtidai istintaqın gedişində, istərsə də işin məhkəmə baxışı zamanı konstitusion müdafiə hüququnun effektiv olaraq təmin olunmasına və iş üzə həqiqətin müəyyən edilməsinə xidmət edən pozitiv haldır.

Müəllifin fikrincə qanunvericilikdə və məhkəmə təcrübəsində mövcud olan ayrı-ayrı boşluq, qüsur və ziddiyyətlərə baxmayaraq, etiraf etməliyik ki, hər kəsin konstitusion müdafiə hüququnun həyata keçirilməsi Azərbaycan Respublikasının qanunvericiliyi ilə kifayət qədər təmin olunur. Odur ki, bu sahədə hüquq pozuntuları ilə bağlı ortaya çıxan bəzi neqativ hallar əsasən subyektiv problem və yanaşmalarla bağlı ola bilər.

Dissertasiyanın «**Azərbaycan Respublıkasının cinayət prosesində müdafiəçinin peşə fəaliyyəti ilə bağlı olan bəzi problemlər və onların**

---

[23] *Əliyev, A.C. Cinayət mühakimə icraatında çəkişmə prinsipi hüquqi dövlət quruculuğunun tələbi kimi // – Bakı: Azərbaycanda hüquqi dövlət quruculuğunun aktual problemləri (fəlsəfi, sosioloji və hüquqi təhlil və proqnozlaşdırma) II beynəlxalq elmi-praktik konfransın materialları, – 2014 (23-24 oktyabr), – s. 256-259.*

aradan qaldırılması yolları» adlanan IV fəslinin «***Müdafiəçinin ümumi və prosessual statusu***» adlanan 4.1-ci paraqrafında müvafiq problemləri araşdıran müəllif müdafiəçinin cinayət prosesinin müstəqil iştirakçısı olması mövqeyində duran müəlliflərlə qismən razılaşaraq hesab edir ki, müdafiəçi, təqsirləndirilən (şübhəli bilinən) şəxs istisna, olunmaqla digər proses iştirakçıları və məhkəmə ilə münasibətdə, eləcə də sübutların qiymətləndirilməsində tam müstəqildir. Lakin təqsirləndirilən (şübhəli bilinən) şəxslə münasibətdə müdafiəçinin müstəqilliyi müəyyən dərəcədə nisbi xarakter daşıyır. Belə ki, müdafiəçi təqsirləndirilən (şübhəli bilinən) şəxsin törədilmiş cinayət əməlində iştirakı və digər əlaqəli məsələlərlə bağlı müdafiə olunanın iradəsindən kənara çıxaraq müstəqil mövqe nümayiş etdirmək hüququna malik deyil. Digər tərəfdən müdafiəçinin müstəqilliyi ancaq təqsirləndirilən (şübhəli bilinən) şəxs üçün əlverişli nəticənin əldə olunması istiqamətdə fəaliyyət göstərmək, həmçinin müdafiə olunanın ona etibar etdiyi sirri yaymamaq vəzifəsi ilə məhdudlaşır. Odur ki, təqsirləndirilən (şübhəli bilinən) şəxsin müdafiəçiyə etibar etdiyi sirrin qorunmasının təminatı olaraq vəkil sirrini təşkil edən məlumatların cinayət işi üzrə sübut kimi istifadə olunmasını qadağan edən normanın cinayət-prosessual qanuna əlavə edilməsi məqsədəuyğun olar[24].

Həmin fəslin «***Müdafiəçinin sübutlar toplamaq, istintaq və digər prosessual hərəkətlərin gedişində iştirak etmək hüququ ilə bağlı problemlər***» adlanan 4.2-ci paraqrafında müəllif mövzuya dair müxtəlf nəzərə fikirləri və müvafiq qanunvericilik normalarını qarşılıqlı olaraq təhlil edərək belə nəticəyə gəlir ki, CPM-in 92.9.3-cü maddəsində nəzərdə tutulan normanın əvvəlində müdafiəçinin cinayət prosesini həyata keçirən orqanın təklifi ilə həmin orqanın apardığı istintaq və ya digər prosessual hərəkətlərdə iştirak etməsinin müdafiəçinin hüququ kimi təqdim edilməsi bir qədər qeyri-adi səslənir. Müəllifin fikrincə, burada müdafiəçinin cinayət prosesini həyata keçirən prosessual şəxsin istintaq və ya digər prosessual hərəkətlərdə iştirak etmək təklifini qəbul edib-etməmək hüququndan danışılması daha düzgün olardı. Belə ki,

[24] *Əliyev, A.C. Müdafiəçinin prosessual statusu // – Bakı: AMEA Fəlsəfə və Hüquq İnstitutunun Elmi əsərləri, – 2014. № 2(23), – s. 281-286.*

bir qayda olaraq, belə təkliflə icraatında cinayət işi olan müstəntiq çıxış edir, özü də müdafiənin həyata keçirilməsinə ciddi təsir etməyən, nəticəsi qabaqcadan bəlli olan hərəkətlər üzrə. *Məsələn*, cinayətin törədilməsində istifadə olunmuş silah, yaxud silah qismində istifadə olunmuş başqa bir əşyaya baxış keçirilməsi. Cinayətin təqsirləndirilən şəxs tərəfindən törədilməsi, eləcə də bu zaman onun istifadə etdiyi üsul və vasitələr mübahisələndirilmədiyi halda müdafiəçinin belə prosessual hərəkətin keçirilməsində iştirak etməsi ciddi bir əhəmiyyət kəsb etmir. Odur ki, bu kimi hallarda müdafiəçiyə bu və ya digər istintaq və ya digər prosessual hərəkətlərdə iştirak etməyin təklif olunması formal xarakter daşıyır. Qeyd etmək lazımdır ki, CPM-in cinayət təqibini həyata keçirən prokurorun, müstəntiqin və təhqiqatçının hüquq və vəzifələrini müəyyən edən 84, 85, 86-cı maddələrində müdafiəçiyə bu və ya digər istintaq, yaxud digər prosessual hərəkətlərdə iştirak etməyi təklif etmək hüquq və ya vəzifəsi nəzərdə tutulmur.

Qeyd olunan ziddiyyətli halın aradan qaldırılması məqsədələ CPM-in 92.9.3-cü maddəsində dissertiyanın nəticə hissəsinin 4.2-ci bəındində göstərilən dəyişikliklərin edilməsini məqsədəuyğun hesab edirik.

Zəruri hesab edildiyi halda, müdafiəçiyə cinayət prosesini həyata keçirən orqanın apardığı istintaq və ya digər prosessual hərəkətlərdə iştirak etməyi təklif etmək hüququna dair normanın CPM-in prokuror, müstəntiq və təhqiqatçıya aid olan 84, 85 və 86-cı maddələrində nəzərdə tutulması daha düzgün olar[25].

Həmin fəslin «***Müdafiəçinin həbsdə olan müdafiə etdiyi şəxslə görüşmək hüququnu həyata keçirməsinin bəzi problemləri***» adlanan 4.3-cü paraqrafında müvafiq problemləri araşdıran müəllif belə nəticəyə gəlir ki, tutulmuş yaxud həbsdə olan müdafiə etdiyi şəxslə görüşmək hüququnu həyata keçirən müdafiəçi cinayət təqibini həyata keçirən

[25] *Алиев, А.Д. Право защитника собирать доказательства по законодательству Азербайджанской Республики и Российской Федерации // – Москва: Адвокатская практика, – 2020. № 3, – с. 26-30; Алиев, А.Д. Право защитника участвовать в следственных и иных процессуальных действиях по законодательству Азербайджанской Республики // – Минск: Журнал Белорусского Государственного Университета. Право – 2021. № 1, – с. 75-80.*

orqanlarda, müvəqqəti saxlama yerlərində, istintaq təcridxanalarında və cəzaçəkmə müəssisələrində bir sıra süni yaradılan problemlərlə üzləşir.

Qeyd etmək lazımdır ki, müdafiəçinin peşə fəaliyyətinin həyata keçirilməsi zamanı qərəzli olaraq yaradılan bürokratik maneələr müdafiəçinin peşə hüquqlarının təmin edilməsini çətinləşdirir, bu isə öz növbəsində Konstitusiya ilə müəyyən olunmuş insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsinin effektivliyini azaldır, yaxud mümkünsüz edir. Belə bürokratik problemlərin aradan qaldırılması və hər kəsin Konstitusion müdafiə hüququnun səmərəli olaraq təmin edilməsinə nail olunması məqsədilə Azərbaycan Respublikasının müvafiq qanunvericilik aktlarına dissertasiyanın nəticə hissəsinin 4.3-cü bəndində nəzərdə tutulan əlavə və dəyişikliklərin edilməsi zəruri hesab olunur.

Müəllifin fikrincə, qanunvericilik aktlarına və normativ sənədlərə həmin bənddə nəzərdə tutulan əlavə və dəyişikliklərin edilməsi Konstitusiyanın 61-ci maddəsinə əsasən hər kəsin ixtisaslı hüquqi yardım almaq hüququnun lazımi səviyyədə təmin edilməsinə, vətəndaş cəmiyyətinin institutu olan vəkilliyin hüquq-müdafiə fəaliyyətinin effektivliyinin artıralmasına xidmət edər[26].

Dissertasiyanın NƏTİCƏ hissəsidə tədqiqatın nəticələrinə əsaslanaraq müvafiq qanunvericilik aktlarına və digər normativ sənədlərə aşağıdakı əlavə və dəyişikliklərin edilməsi təklif olunur:

I fəsil üzrə.

1.1. Dissertasiyanın 1.2-ci paraqrafında (s. 29 - 42) aparılmış tədqiqatın nətcələrinə əsaslanmaqla "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununa aşağıdakı əlavə və dəyişikliklərin edilməsi təklif olunur:

– 1.1-a. "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun adında dəyişiklik edilsin və o, "Vəkillik və vəkillik fəaliyyəti haqqında" AR Qanunu, yaxud "Vəkillər birliyi və vəkillik fəaliyyəti haqqında" AR Qanunu və ya "Vəkillik haqqında" AR Qanunu adlandırılsın;

---

[26] *Алиев, А.Д. Актуальные вопросы законодательного несовершенства реализации права на встречу адвоката с находящимся под стражей подзащитным // – Москва: LIII Международная научно-практическая конференция Евразийского научного объединения на тему: Теоретическое и практическое вопросы современной науки – 2019 (30 - 31 июля), – с. 205.*

– 1.1-b. “Vəkillər və vəkillik fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanununun maddələri onun mətnində aşağıdakı ardıcıllıqla yerləşdirilsin:

“Maddə 1. Vəkillik fəaliyyətinin əsasları və prinsipləri

Maddə 2. Vəkillər və vəkillik fəaliyyəti haqqında qanunvericilik

Maddə 3. Vəkilliyin vəzifələri

Maddə 4. Vəkilliyin rəmzləri

Maddə 5. Vəkillər Kollegiyası

Maddə 6. Vəkillər Kollegiyası üzvlərinin “ümumi yığıncağı” (konfransı)

Maddə 7. Vəkillər Kollegiyasının Rəyasət Heyəti

Maddə 8. Vəkillər Kollegiyası Rəyasət Heyəti sədrinin səlahiyyətləri

Maddə 9. Vəkillərin İxtisas Komissiyası

Maddə 10. Vəkillərin İntizam Komissiyası

Maddə 11. Vəkillər Kollegiyasının vəsaiti

Maddə 12. Vəkil

Maddə 13. Vəkilin andı

Maddə 14. Vəkilin köməkçisi

Maddə 15. Vəkilin xidməti vəsiqəsi

Maddə 16. Vəkil orderi

Maddə 17. Vəkillik fəaliyyəti

Maddə 18. Vəkillik fəaliyyətinin həyata keçirilməsinin ümumi qaydaları

Maddə 19. Vəkillik fəaliyyətinin təminatı

Maddə 20. Vəkilin hüquqları

Maddə 21. Vəkil sorğusu

Maddə 22. Vəkilin vəzifələri

Maddə 23. Vəkil sirri

Maddə 24. Vəkil etikası

Maddə.25. Vəkillərin peşə hazırlığı və ixtisasının artırılması

Maddə 26. Vəkil tərəfindən göstərilən hüquqi yardım haqqının ödənilməsi

Maddə 27. Dövlət hesabına hüquqi yardımın göstərilməsi

Maddə 28. Vəkillərin intizam məsuliyyəti

Maddə 29. Vəkilin fəaliyyətinə xitam verilməsi

Maddə 30. Vəkillərin pensiya təminatı

Maddə 31. Əcnəbilər tərəfindən hüquqi yardımın göstərilməsi

Keçid müddəaları”

– 1.1-c. “Vəkillər və vəkillik fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanununa aşağıdakı məzmunda yeni maddə əlavə edilsin:

“**Vəkilin fəaliyyətinin dayandırılması**

I. Vəkilin fəaliyyəti aşağıdakı hallarda və müvafiq müddətə dayandırılır:

– vəkil dövlət qulluğuna qəbul olunduqda;

– vəkil Milli Məclisin deputatı, yaxud yerli özünüidarə orqanlarının üzvü seçilərək ödənişli qaydada fəaliyyət göstərdikdə;

– vəkil hərbi xidmətə çağırıldıqda (daxil olduqda);

– vəkil büdcədən maliyyələşdirilən idarə və təşkilatlarda (pedaqoji, elmi və yaradıcılıq fəaliyyəti istisna olmaqla) ödənişli əsasla işə qəbul olunduqda;

– vəkil qanunla müəyyən edilmiş qaydada itkin düşmüş hesab edildikdə;

– vəkil ərizə ilə müraciət edərək müəyyən müddətə vəkillik fəaliyyətinin dayandırılmasına xahiş etdikdə.

II. Vəkilin fəaliyyəti Vəkillər Kollegiyası Rəyasət Heyətinin qərarı ilə dayandırılır. Vəkillik fəaliyyətinin dayandırılmasına əsas verən hallar aradan qalxdıqdan sonra Vəkillər Kollegiyası Rəyasət Heyətinin qərarı ilə vəkilin fəaliyyəti bərpa olunur və ancaq bundan sonra vəkil peşə fəaliyyətini davam etdirmək hüququna malik olur.

III. Vəkillik fəaliyyəti dayandırılmış şəxsin həmin fəaliyyətlə məşğul olması və Vəkillər Kollegiyasının orqanlarında seçkili vəzifələr tutması yolverilməzdir.

IV. Vəkil statusunun dayandırılması və ya bərpa olunmasından imtina edilməsi barədə qərardan vəkil məhkəməyə şikayət verə bilər”.

1.2. Dissertasiyanın 1.4-cü paraqrafda aparılmış (s. 56 - 69) tədqiqatın nəticələrinə əsaslanmaqla Konstitusiyaya və “Prokurorluq haqqında” Qanuna aşağıdakı dəyişikliklərin edilməsi təklif olunur:

– 1.2-a. Konstitusiyanın "Azərbaycan Respublikası Prokurorluğu" adlanan 133-cü maddəsi Konstitusiyanın "Məhkəmə hakimiyyəti" adlanan VII fəslindən xaric edilsin və zərurət olduqda ayrıca fəsildə nəzərdə tutulsun;

– 1.2-b. "Prokurorluq haqqında" Qanunun 2-ci maddəsinin 1-ci abzasının mətnindən "*məhkəmə hakimiyyəti sisteminə daxil olmaqla*" ifadəsi xaric edilməklə həmin abzas aşağıdakı redaksiyada verilsin:

– "Azərbaycan Respublikasının Prokurorluğu ərazi və ixtisaslaşdırılmış prokurorluqların Azərbaycan Respublikasının baş prokuroruna tabeliyinə əsaslanan vahid mərkəzləşdirilmiş orqandır";

1.3. Dissertasiyanın 1.5-ci paraqrafda qeyd olunan nöqsanların (s. 70-83) aradan qaldırılması məqsədilə "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununda aşağıdakı dəyişikliklərin edilməsi təklif olunur:

– 1.3-a. "**Maddə 1. Azərbaycan Respublikasında vəkillik**

II. Vəkillik qanunun aliliyi, müstəqillik, özünüidarəetmə, demokratizm və vəkillərin bərabərliyi prinsipləri əsasında fəaliyyət göstərir.

– 1.3-b. **Maddə 5. Vəkillik fəaliyyətinin həyata keçirilməsinin ümumi qaydaları**

I. Vəkillik fəaliyyəti qanunun aliliyi, vəkillərin müstəqilliyi, konfidensiallıq, vəkil etikasına riayət edilməsi və vəkillərlə hüquqi yardım almaq üçün onlara müraciət edən şəxslər arasında münasibətlər könüllüyü prinsipləri əsasında həyata keçirilir".

III fəsil üzrə.

3.1. Dissertasiyanın 3.1-ci paraqrafında (s. 128-140) aparılmış tədqiqatın nəticələrinə əsaslanaraq təklif edirik:

– 3.1-a. CPM-də, eləcə də digər qanunvericilik aktlarında istifadə olunan "şübhəli şəxs" anlayışı "şübhəli bilinən şəxs" anlayışı ilə əvəz olunsun.

3.2. Dissertasiyanın 3.2-ci paraqrafının 3.2.3-cü bəndinin Konstitusiyanın 26-cı maddəsinin təhlilinə dair 1-ci hissəsində (s. 162-166) qeyd olunan qüsur və ziddiyyətlərin aradan qaldırılması məqsədilə aşağıdakılar təklif olunur:

– 3.2-a. “CPM-in 19-cu maddəsi aşağıda göstərilən yeni redaksiyada verilsin:

Maddə 19. Hüquqi yardım almaq və müdafiə hüquqlarının təmin edilməsi

19.1. Cinayət təqibinin gedişində təhqiqatçı, müstəntiq, prokuror və məhkəmə şübhəli bilinən və təqsirləndirilən şəxslərin ixtisaslı hüquqi yardım almaq hüququnun təmin edilməsi üçün tədbir görməlidir.

19.2. Təhqiqatçı, müstəntiq, prokuror və məhkəmə şübhəli bilinən və təqsirləndirilən şəxslərin hüquqlarını onlara izah etməli və onların qanunla qadağan olunmayan bütün üsul və vasitələrdən istifadə etməklə öz hüquq və azadlıqlarını müdafiə etmək imkanını təmin etməlidir.

19.3. Cinayət prosesini həyata keçirən orqan, zərər çəkmiş şəxs (xüsusi ittihamçı), mülki iddiaçı, mülki cavabdeh və ya onların qanuni nümayəndələrinin*, habelə barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat aparılan hüquqi şəxsin* cinayət prosesi gedişində özlərinin bu Məcəllə ilə müəyyən edilmiş qaydada dəvət etdiyi nümayəndənin hüquqi yardımından istifadə etmək hüququnu gözləməlidir.

19.4. Zərər çəkmiş şəxsin və ya şahidin dindirilməsi zamanı cinayət prosesini həyata keçirən orqan həmin şəxslərin nümayəndə qismində dəvət etdikləri vəkilin onların yanında olmasını qadağan etməməlidir”;

– 3.2-b. CPM-in 90.6-cı və 91.4-cü maddələri həmin məcəllənin 90 və 91-ci maddələrinin mətnindən xaric edilsin;

– 3.2-c. CPM-nin 84, 85 və 86-cı maddələrinə müvafiq olaraq aşağıdakı məzmunda normalar əlavə olunsun:

– 84-cü maddəyə: “*ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror cinayət təqibinin gedişində təhqiqatçı və müstəntiq tərəfindən şübhəli və təqsirləndirilən şəxslərin müdafiə hüququnun təmin edilməsi vəziyyətini yoxlamalı, bununla bağlı qanun pozuntusu aşkar olunduğu halda onun aradan qaldırılması üçün tədbir görməli, təhqiqatçı və müstəntiqə müvafiq tapşırıqlar verməli və onların icrasına nəzarət etməlidir”*;

– 85-ci maddəyə: "*müstəntiq təqsirləndirilən şəxsin Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə müəyyən olunmuş hüquqlarını izah etməli, onun qanunla qadağan olunmayan bütün üsul və vasitələrdən istifadə etməklə öz hüquq və azadlıqlarını müdafiə etmək imkanını təmin etməlidir*;

– 86-cı maddəyə: "*təhqiqatçı cinayət təqibinin gedişində şübhəli şəxsin Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə müəyyən olunmuş hüquqlarını izah etməli və onun qanunla qadağan olunmayan bütün üsul və vasitələrdən istifadə etməklə öz hüquq və azadlıqlarını müdafiə etmək imkanını təmin etməlidir*".

3.3. Dissertasiyanın 3.2-ci paraqrafının 3.2.3-cü bəndinin Konstitusiyanın 27-cı maddəsinin təhlilinə dair 2-ci hissəsində (s. 166 - 169) göstərilən qüsur və ziddiyyətlərin aradan qaldırılması məqsədilə qanunvericiliyə aşağıdakı dəyişikliklərin edilməsi təklif olunur:

– 3.3-a. "II. Dövlətə silihlı basqın zamanı düşmən əsgərlərinin öldürülməsi və qanunla nəzərdə tutulmuş digər hallar istisna olmaqla, hər bir şəxsin yaşamaq hüququ toxunulmazdir.

– 3.3-b. III. Müstəsna cəza tədbiri kimi ölüm cəzasının tətbiqi yalnız dövlətə, insan həyatına və sağlamlığına qarşı xüsusilə ağır cinayətlərə görə ayrıca qanunla müəyyən edilə bilər".

3.4. Dissertasiyanın 3.2-ci paraqrafının 3.2.3-cü bəndinin Konstitusiyanın 61-ci maddəsinin təhlilinə dair 9-cu hissəsində (s. 176-180) qeyd olunan qüsurlu cəhətin aradan qaldırılması məqsədilə qanunvericiliyə aşağıdakı dəyişikliklərin edilməsi təklif olunur:

– 3.4-a. Konstitusiyanın 61-cı maddəsinin I hissəsində "*yüksək keyfiyyətli*" sözləri "*ixtisaslı*" sözü ilə əvəz edilsin;

– 3.4-b. AR CPM-nin 92-ci maddəsinin tərkibindən 92.12, 92.14 və 92.15-ci maddələr xaric edilsin. Həmin maddələrdə nəzərdə tutulmuş normalar müvafiq cinayət mühakimə iştirakçılarının hüquq və vəzifələrini nəzərdə tutan 84, 85, 86-cı maddələrin tərkibinə daxil edilsin.

– 3.4-c. CPM-in 84-cü maddəsinə 84.2.2-ci maddədən sonra aşağıdakı redaksiyada 84.2.3-cü maddə əlavə edilsin və əvvəlki 84.2.3, 84.2.4 və 84.2.5-ci maddələr müvafiq olaraq 84.2.4, 84.2.5 və 84.2.6-cı maddələr hesab olunsun:

–“84.2.3. şübhəli bilinən və təqsirləndirilən şəxslərin hüquqlarının, o cümlədən, həmin şəxslərin müdafiə hüququnun təmin edilməsi, eləcə də cinayət prosesi iştirakçılarının pozulmuş hüquqlarının bərpası üzrə zəruri tədbirlər görmək”;

– 3.4-ç. CPM-in 85.2.3 -cü maddəsi aşağıdakı yeni redaksiyada verilsin:

“85.2.3. şəxsin müdafiə hüququnu, o cümlədən tutulduğu, ittiham elan olunduğu və ya həbsə alındığı andan bu Məcəllənin 153.2.5 – 153.2.8-ci maddələrində nəzərdə tutulmuş müddəalara uyğun olaraq müdafiəçinin yardımından istifadə etmək hüququnu, eləcə də qanunla qadağan edilməyən bütün vasitə və üsullardan istifadə etməklə müdafiə hüququnu həyata keçirmələrini təmin etmək və onun xahişi ilə müdafiəyə hazırlaşması üçün ona kifayət qədər vaxt vermək”;

– 3.4-d. CPM-in 86.2.3-cü maddəsi aşağıdakı yeni redaksiyada verilsin:

“86.2.3. şəxsin müdafiə hüququnu, o cümlədən tutulduğu, ittiham elan olunduğu və ya həbsə alındığı andan bu Məcəllənin 153.2.5 – 153.2.8-ci maddələrində nəzərdə tutulmuş müddəalara uyğun olaraq müdafiəçinin köməyindən istifadə etmək hüququnu, eləcə də qanunla qadağan edilməyən bütün vasitə və üsullardan istifadə etməklə öz müdafiə hüququnu həyata keçirmələrini təmin etmək”;

AR CPM-nin 125-ci maddənin adı, **eləcə də** 125.1 və 125.2.3-cü maddələrin mətni aşağıdakı redaksiyada verilsin:

“Maddə 125. Sübutların yolverilməzliyi

125.1. Bu Məcəllənin tələblərinin pozulması ilə əldə olunmuş sübutlar (məlumatlar, sənədlər, əşyalar) yolverilməz olduğu üçün hüquqi qüvvəyə malik deyil. Yolverilməz sübutlar ittihamın əsası kimi bu Məcəllənin 139-cu maddəsində nəzərdə tutulan halların sübut olunması üçün istifadə edilə bilməz.

125.2.3. təqsirləndirilən (şübhəli) şəxsin müdafiə hüququnun, eləcə də cinayət mühakimə icraatının aparıldığı dili bilməyən şəxsin hüquqlarının pozulması ilə” [112, s. 144-145].

3.5. Dissertasiyanın 3.2-ci paraqrafının 3.2.3-cü bəndinin Konstitusiyanın 63-ci maddəsinin təhlilinə dair 10-cu hissəsində (s. 181 - 186) qeyd olunan qüsurların aradan qaldırılması məqsədilə

Konstitusiyanın 63-cü maddəsində aşağıdakı dəyişikliklərin edilməsi təklif olunur:

– I hissənin birinci cümləsi mətndən xaric edilsin və ikinci cümlə aşağıdakı redaksiyada verilsin – "*cinayət törətməkdə təqsirləndirilən hər bir şəxs, təqsiri qanunla müəyyən edilmiş qaydada – qanuni qüvvəyə minmiş məhkəmə hökmü ilə sübut edilənədək təqsirsiz sayılır*";

– IV hissə aşağıdakı redaksiyada verilsin – "*qanunsuz yollarla əldə edilmiş məlumat, sənəd, əşya və digər materiallar cinayət mühakimə icraatında sübut kimi istifadə oluna bilməz"*;

– təqsirsizlik prezumpsiyası prinsipinin mahiyyətinin I hissədə açıqlandığını nəzərə alaraq V hissə maddənin mətnindən xaric edilsin.

3.6. Dissertasiyanın 3.2-ci paraqrafının 3.2.3-cü bəndinin Konstitusiyanın 64-cü maddəsinin təhlilinə dair 11-ci hissəsində (s. 186-187) qeyd olunan qüsurlu cəhətin aradan qaldırılması məqsədilə həmin maddədə adında və mətnində "bir" sözünün "eyni" sözü ilə əvəz olunmasını təklif olunur;

3.7. Dissertasiyanın 3.2-ci paraqrafının 3.2.3-cü bəndinin Konstitusiyanın 65-ci maddəsinin təhlilinə dair 12-ci hissəsində (s. 187-189) qeyd olunan qüsurlu halların aradan qaldırılması məqsədilə aşağıdakı dəyişikliklər təklif olunur:

– 3.7-a. Konstitusiyanın 65-ci maddədəsinin mətnindən "özünün əfv edilməsi" ifadəsi xaric edilməklə həmin maddə aşağıdakı redaksiyada verilsin:

"**Maddə 65. Məhkəməyə təkrar müraciət hüququ**

Məhkəmənin məhkum etdiyi hər bir şəxsin öz barəsində çıxarılmış hökmə qanunla nəzərdə tutulan qaydada yuxarı məhkəmədə yenidən baxılması, habelə cəzasının yüngülləşdirilməsi haqqında müraciət etmək hüququ vardır";

– 3.7-b. CPM-in 35.2-ci maddəsi müvafiq əlavələr edilməklə aşağıdakı redaksiyada verilsin:

– "35.2. Məhkum olunmuş hər bir şəxs yuxarı məhkəmə instansiyalarına şikayət verərək aşağıdakı hüquqları həyata keçirə bilər:

35.2.1. barəsində çıxarılmış məhkəmə hökmünün qanunsuz və

əsassız olması ilə əlaqədar ləğv edilməsini və bəraətverici əsaslarla yeni hökm çıxarılmasını xahiş etmək;

35.2.2. barəsində çıxarılmış məhkəmə hökmünün qanunsuz və əsassız olması ilə əlaqədar ləğv edilməsini və işə yenidən baxılmasını xahiş etmək;

35.2.3. barəsində çıxarılmış hökmlə təyin olunmuş cəzanın ağırlığını nəzərə alaraq onun yüngülləşdirilməsini xahiş etmək";

3.8. Dissertasiyanın 3.2-ci paraqrafının 3.2.3-cü bəndinin Konstitusiyanın 68-ci maddəsinin təhlilinə dair 13-cü hissəsində (s. 189-191) qeyd qüsurun aradan qaldırılması məqsədilə həmin maddənin aşağıdakı redaksiyada verilməsi təklif olunur:

– "IV. Dövlət, dövlət qulluqçuları ilə birlikdə, dövlət qulluqçularının qanuna zidd hərəkətləri və hərəkətsizliyi nəticəsində insan hüquq və azadlıqlarına dəymiş ziyana və onların təminatının pozulmasına görə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada məsuliyyət daşıyır".

IV fəsil üzrə.

4.1. Dissertasiyanın 4.1-ci paraqrafında (s. 218-231) qeyd olunan vəkil sirrinin qorunması, eləcə də vəkil sorğusunun icrası ilə bağlı problemlərin aradan qaldırılması məqsədilə aşağıdakılar təklif olunur:

– 4.1-a. "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 7-ci maddəsinin III hissəsinə aşağıdakı məzmunda üçüncü abzas əlavə edilsin, əvvəlki üçüncü abzas dördüncü abzas hesab olunsun:

– "Peşə fəaliyyəti ilə bağlı bildirdiyi fikirlərə görə vəkilin intizam, inzibati, yaxud cinayət məsuliyyətinə cəlb olunması yolverilməzdir";

– 4.1-b. Vəkillik haqqında Qanunun 31 oktyabr 2025-ci il tarixli 281-VIIQD nömrəli Qanunla əlavə olunmuş 15-2-ci maddəsinə aşağıdakı məzmunda IV və V hissələr və "Qeyd" hissəsi əlavə edilsin:

Maddə 15-2. Vəkil sorğusu

IV. Vəkil sorğusunun müvafiq qaydada icra olunmaması (qanunsuz imtina, sorğunun icra müddətinin səbəbsiz olaraq pozulması və s.) qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyətə səbəb olur.

V. Sorğu edilən məlumatın, sənədlərin və s. vəkilə verilməsindən aşağıdakı hallarda səbəbini rəsmi qaydada bildirməklə imtina edilə bilər:

– vəkil sorğusu forma və məzmunca müvafiq tələblərə uyğun olmadıqda;

– tələb olunan məlumatlar, sənədlər və s. vəkil sorğusunu icra etməli olan qurumda olmadıqda;

– sorğu ilə tələb olunanlar dövriyyəsi rəsmi qaydada məhdudlaşdırılmış məlumat və sənədlər kateqoriyasına aid olduqda.

Qeyd: vəkil sorğusu müvafiq qaydada icra olunmadığı, yaxud vəkilin mülahizəsinə görə sorğunun icra olunmasından əsassız olaraq imtina edildiyi halda vəkil həmin sorğu ilə tələb olunmuş məlumatların, arayışların, xasiyyətnamələrin və digər sənədlərin tələb olunması barədə cinayət prosesinin gedişində (kassasiya mərhələsi istisna olaraq) vəsatət verə bilər.

4.2. Dissertasiyanın 4.2-ci paraqrafında (s. 232-245) aparılmış təhlilə əsaslanmaqla CPM-in 92.9.3-cü maddəsinin aşağıdakı redaksiyada verilməsi təklif olunur:

– "92.9.3. müdafiə etdiyi şəxsin iştirakı ilə keçirilən bütün istintaq və (və ya) digər prosessual hərəkətlərdə iştirak etmək".

4.3. Dissertasiyanın 4.3-cü paraqrafında (s. 245-257) aparılmış təhlilə əsaslanmaqla "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 15-ci maddəsinin II hissəsinin altıncı abzasının və AR İXM-nin 91.0.6-cı maddəsinin aşağıdakı redaksiyada verilməsini təklif olunur:

– 4.3-a. "söhbətlərin sayı və müddəti məhdudlaşdırılmadan müdafiə etdiyi şəxslə təklikdə görüşmək və konfidensial ünsiyyət saxlamaq";

– 4.3-b. "91.0.6. "tutulmuş şəxsə söhbətlərin sayı və müddəti məhdudlaşdırılmadan öz vəkili ilə təklikdə görüşmək və konfidensial ünsiyyət saxlamaq imkanı yaratmaq".

4.4. Dissertasiyanın 4.3-cü paraqrafında (s. 245-257) CPM-in 153.2.5-ci maddəsilə bağlı aparılmış təhlilə (s. 251-252) əsaslanmaqla həmin maddənin aşağıdakı redaksiyada verilməsi təklif olunur:

– “153.2.5. şəxsə tutulduğu andan söhbətlərin sayı və müddəti məhdudlaşdırılmadan öz müdafiəçisi, eləcə də qanuni nümayəndəsi ilə təklikdə görüşmək və konfidensial ünsiyyət saxlamaq imkanı yaratmaq”;

4.5. Dissertasiyanın 4.3-cü paraqrafında aparılmış təhlilə (s. 245-257) əsaslanmaqla CPM-ə, CİM-ə və “Müvəqqəti saxlama yerlərinin daxili intizam Qaydaları”na aşağıda göstərilən əlavə və dəyişikliklərin edilməsini təklif olunur:

– 4.5-a. müdafiəçidən vəkil orderini qəbul etmiş təhqiqatçının, müstəntiqin və hakimin (məhkəmənin) müvafiq müvəqqəti saxlama yerinin, istintaq təcridxanasının, yaxud cazaçəkmə müəssisəsinin rəhbərliyini həmin müəssisədə saxlanılın konkret şübhəli bilinən, təqsirləndirilən və ya məhkum olunmuş şəxsin müdafiəçisinin kimliyi barədə dərhal məlumatlandırmaq vəzifəsini müəyyən edən norma CPM-in müvafiq maddələrinə əlavə edilsin;

– 4.5-b. cinayət təqibini həyata keçirən orqanlarda, müvəqqəti saxlama yerlərində, istintaq təcridxanalarında və cəzaçəkmə müəssisələrində vəkilin portfel, çanta, qovluq, yaxud digər əşyalarına baxış keçirilməsini qadağan edən norma CPM-ə, CİM-ə və müvəqqəti saxlama yerlərinin, istintaq təcridxanalarının və cəzaçəkmə müəssisələrinin daxili intizam qaydalarına əlavə edilsin;

– 4.5-c. müdafiə etdiyi şəxslə görüşə gəlmiş vəkilin hüquqi yardımın göstərilməsi üçün zəruri olan noutbuk, diktafon və s. texniki vasitələri cinayət təqibini həyata keçirən orqanların, müvəqqəti saxlama yerlərinin, istintaq təcridxanalarının və cəzaçəkmə müəssisələrinin ərazisinə, bina və otaqlarına keçirmək hüququnu müəyyən edən norma CPM-ə, CİM-ə, müvəqqəti saxlama yerlərinin, istintaq təcridxanalarının və cəzaçəkmə müəssisələrinin daxili intizam qaydalarına əlavə edilsin;

– 4.5-ç. cəzaçəkmə müəsisəsinə buraxılması üçün vəkilin şəxsiyyətini və Azərbaycan Respublikasının ərazisində vəkillik fəaliyyətini həyata keçirmək hüququnu təsdiq edən sənəd kimi vəkil vəsiqəsinin təqdim edilməsini müəyyən edən, eləcə də vəkildən

konkret şəxsə hüquqi yardım göstərilməsi barədə müqavilənin və ya vəkil orderinin, yaxud həmin sənədlərin surətinin təqdim olunmasını (görüş üçün müraciətə əlavə edilməsini) qadağan edən norma CPM-ə və CİM-ə əlavə edilsin;

– 4.5-d. vəkilin bilavasitə müvəqqəti saxlama yerlərinin, istintaq təcridxanalarının və müvafiq cəzaçəkmə müəssisəsinin rəhbərliyinə etdiyi müraciət əsasında həmin müəssisədə saxlanılan konkret şəxslə (şübhəli bilinən, təqsirləndirilən və ya məhkum olunmuş) ona görüş verilməsini müəyyən edən norma CİM-ə əlavə edilsin;

– 4.5-e. müvəqqəti saxlama yerlərinin daxili intizam Qaydalarının 6.2-ci bəndində tutulmuş və ya həbs edilmiş şəxslə görüşə gələn müdafiəçinin vəkillik vəsiqəsini və orderi təqdim etmək vəzifəsini nəzərdə tutan normanın mətnindən "order" sözü xaric edilsin.

Konstitusiyanın 153-cü maddəsilə müəyyən edildiyi kimi, Konstitusiyanın mətnində dəyişiklikləri Azərbaycan Respublikasının Milli Məclisi və ya Azərbaycan Respublikasının Prezidenti təklif edə bilər. Konstitusiyanın 157-ci maddəsinə əsasən, Konstitusiyaya əlavələri Azərbaycan Respublikasının Prezidenti və ya Azərbaycan Respublikası Milli Məclisinin azı 63 deputatı təklif edə bilər. Odur ki, Konstitusiyanın 27, 63, 64, 65, 68 və 133-cü maddələri ilə bağlı ifadə olunmuş fikirlərin öyrənilib qiymətləndirilməsi və müvafiq qərar qəbul edilməsi üçün dissertasiyanın həmin fikirlərin əsaslandırılmasına dair hissədə olan mətninin, elcədə nəşr olunmuş müvafiq elmi məqalələrin mətninin Azərbaycan Respublikasının Milli Məclisinə təqdim olunmasını məqsədəuyğun hesab edirik.

Dissertasiyanın avtoreferatının ümumi həcmi 88530 işarədən ibarətdir.

Dissertasiya əsas müddəaları müəllifin nəşr edilmiş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:

1. Əliyev, A.C. Vəkil statusunun bəzi məsələləri // – Bakı: AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun Elmi əsərləri, – 2012. № 2(19), – s. 248-252.

2. Əliyev, A.C. Vəkil etikasının bəzi məsələləri // – Bakı: Nəqliyyat hüququ, – 2013. № 1, – s. 77-82.

3. Əliyev, A.C. Müdafiəçinin prosessual statusu // – Bakı: AMEA Fəlsəfə və Hüquq İnstitutunun Elmi əsərləri, – 2014. № 2(23), – s. 281-286.

4. Əliyev, A.C. Vəkilliyin anlayışına müasir yanaşma // – Bakı: AMEA Fəlsəfə və Hüquq İnstitutunun Elmi əsərləri, – 2015. № 2(25), – s. 167-173.

5. Əliyev, A.C. Azərbaycan Respublikasında vəkillik, vətəndaş cəmiyyətinin institutu kimi // – Bakı: DİN Polis Akademiyasının Xəbərləri, – 2017. № 2(22), – s. 81-86.

6. Əliyev, A.C. Zəruri müdafiə institutu: tarixi inkişaf mərhələləri və mövcud vəziyyət // – Bakı: Polis Akademiyasının Xəbərləri – 2017. № 3-4, s. 41-46.

7. Əliyev, A.C. Azərbaycan Respublikasının vəkillik institutu Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ərəfəsində // – Bakı: DİN Polis Akademiyasının Xəbərləri, – 2018. № 1-2, – s. 125-131.

8. Əliyev, A.C. Təqsirsizlik prezumpsiyası Azərbaycan Respublikasında ədalət mühakiməsinin həyata keçirilməsinin Konstitusiya prinsipi kimi // – Bakı: DİN Polis Akademiyasının Xəbərləri, – 2019. № 2(22), – s. 62-67.

9. Əliyev, A.C. Azərbaycan Respublikasının Konstitusiyası ilə bəyan olunmuş yaşamaq hüququna dair normanın bəzi aspektləri // – Bakı: DİN Polis Akademiyasının Xəbərləri, – 2019. № 3(23), – s. 83-88.

10. Алиев, А.Д. Некоторые проблемы осуществления адвокатом право на встречу с подзащитным, находящимся под стражей (по законодательству Республики Азербайджан) // – Одесса: Вестник Одеського Национального Университета. Правоведение. Том 24. Выпуск 1(34), – 2019. – С.166-173.

11. Əliyev, A.C. Azərbaycan Respublikasında şübhəli və təqsirləndirilən şəxslərin müdafiə hüququnun təmin edilməsi cinayət prosesinin konstitusiya prinsipi kimi (*H.S.Qurbanovun həmmüəllifliyi ilə*) // – Bakı: Qanun, – 2020. № 8(310), – s. 29-35.

12. Алиев, А.Д. Право на жизнь: сравнительный анализ соответствующих норм Конституций Азербайджанской

Республики и Российской Федерации // – Москва: Социально-политические науки, – 2020. № 1, – с. 28-32.

13. Алиев, А.Д. Право защитника собирать доказательства по законодательству Азербайджанской Республики и Российской Федерации // – Москва: Адвокатская практика, – 2020. № 3, – с. 26-30.

14. Алиев, А.Д. Об определении места адвокатуры в обеспечении конституционных прав личности в Азербайджанской Республике // – Москва: Адвокатская практика, – 2020. № 5, – с. 53-58.

15. Алиев, А.Д. Правовые принципы адвокатуры и адвокатской деятельности в Азербайджанской Республике // – Нижний Новгород: Вестник Нижегородского университета им. Н.И. Лобачевского – 2020. № 4, – с. 73-79.

16. Əliyev, A.C. Azərbaycan Respublikasının cinayət prosesində təqsirləndirilən (şübhəli) şəxsin müdafiə hüququnu təmin edən konstitusiya normaları // – Bakı: Qanun, – 2020. № 10(312), – s. 76-81.

17. Алиев, А.Д. Право защитника участвовать в следственных и иных процессуальных действиях по законодательству Азербайджанской Республики // – Минск: Журнал Белорусского Государственного Университета. Право – 2021. № 1, – с. 75-80.

18. Əliyev, A.C. Azərbaycan Respublikasının cinayət prosesində təqsirləndirilən şəxsin müdafiə hüququnu təmin edən ümumi xarakterli konstitusiya normaları // – Bakı: Qanun, – 2021. № 06(320), – s. 13-21.

19. Əliyev, A.C. Hüquq və azadlıqların qanunla qadağan olunmayan üsul və vasitələrlə müdafiəsinə dair konstitusiya normasının cinayət-prosessual qanunvericilikdə konkretləşdirilməsi barədə // – Bakı: Qanun, – 2022. № 01(327), – s. 81-86.

20. Əliyev, A.C. Elmi yaradıcılıq azadlığı: hüquqi əsasları və reallıq (*H.S.Qurbanovun həmmüəllifliyi ilə*) // – Bakı: Qanun, – 2022. № 03 (329), s. 3-9.

21. Əliyev, A.C. Azərbaycan Respublikasının Konstitusiyası cinayət-prosessual qanunun əsas mənbəyi kimi (*N.H.Cəfərlinin həmmüəllifliyi ilə*) // – Bakı: Hüquqi Elmlər və Təhsil, – 2022. № 67, – s. 66-78.

22. Алиев, А.Д. Конституционные нормы непосредственного действия, обеспечивающие обвиняемому право на защиту и конкретизация этих норм в УПК Азербайджанской Республики // – Баку: Юридические науки и образование, – 2022. № 68, с. 8-16.

23. Əliyev, A.C. Hərbi qulluqçuların hüquqlarının məhkəmədə müdafiəsinin bəzi xüsusiyyətləri // – Bakı: DİN Polis Akademiyasının Xəbərləri, – 2022. № 4(36), – s. 8-12.

24. Əliyev, A.C. Təqsirləndirilən şəxsin müdafiə hüququnu təmin edən bilavasitə təsir qüvvəli Konstitusiya normalarının bəzi aspektləri (*A.X.Rüstəmzadənin həmmüəllifliyi ilə*) // – Bakı: Qanun, – 2023. № 01(339), – s. 51-59.

25. Əliyev, A.C. Azərbaycan Respublikasında vəkillik fəaliyyətinin dayandırılması problemi // – Bakı: DİN Polis Akademiyasının Xəbərləri, – 2023, № 3(39), – s. 40-45.

26. Əliyev, A.C. Azərbaycan Respublikasında vəkilliyin və vəkillik fəaliyyətinin konstitusion əsasları (*H.S.Qurbanovun həmmüəllifliyi ilə*) // – Bakı: Hüquqi Elmlər və Təhsil, – 2023. № 72, – s. 67-76.

27. Алиев, А.Д. Некоторые проблемы, связанные с уголовно-процессуальными функциями в законодательстве Азербайджанской Республики // – Баку: Юридические науки и образование, – 2023. № 73, с. 26-35.

28. Aliyev A.J. Legal Principles of the Advocacy Activities in Azerbaijan and in the post-Soviet States // Erih Plus: Futurity Economics&Law: December Vol. 3 № 4 (2023), – p. 223-238.

29. Алиев, А.Д. Презумпция невиновности: сравнительный анализ соответствующих конституционных норм Российской Федерации и Азербайджанской Республики // – С.Петербург: Вестник СПб ГУ. Право, – 2025. Том 16 № 2, – s. 456-469.

30. Əliyev, A.C. Cinayət mühakimə icraatında çəkişmə prinsipi hüquqi dövlət quruculuğunun tələbi kimi // – Bakı: Azərbaycanda hüquqi dövlət quruculuğunun aktual problemləri (fəlsəfi, sosioloji və hüquqi təhlil və proqnozlaşdırma) II beynəlxalq elmi-praktik konfransın materialları, – 2014 (23-24 oktyabr), – s. 256-259.

31. Əliyev, A.C. Müdafiə hüququnun təmin olunmasına dair Konstitusiya norması və cinayət prosesində təqsirləndirilən şəxsin

müdafiə hüququ // – Bakı: Hüquq elminin müasir problemləri: Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin yeni tendensiyaları» mövzusunda V Respublika elmi-nəzəri konfransın materialları, – 2015 (7-8 may), – s. 142-146.

32. Алиев, А.Д. Некоторые аспекты обеспечения права на защиту обвиняемого (подозреваемого) в современных условиях // Материалы Международной научно-практической конференции (17 - 18 мая 2019 г.) на тему – «Эффективное противодействие преступности в условиях глобализации: проблемы и перспективы» – Краснодар, Краснодарский университет МВД России, – 2019. – С. 140-145.


33. Алиев, А.Д. Актуальные вопросы законодательного несовершенства реализации права на встречу адвоката с находящимся под стражей подзащитным // – Москва: LIII Международная научно-практическая конференция Евразийского научного объединения на тему: Теоретическое и практическое вопросы современной науки – 2019 (30 - 31 июля), – с. 204 – 205.

34. Əliyev, A.C. Qohumlar əleyhinə ifadə verməyə məcbur etmənin yolverilməzliyi prinsipi insan və vətəndaş hüquq və azadlıqlarinin müdafiəsi kontekstində // – Bakı: Ümumdünya insan hüquqları Bəyannaməsinin 74 illiyinə həsr olunmuş «Müasir dövrdə insan hüquqlarının aktual problemləri" mövzusunda beynəlxalq elmi-praktik konfransın materialları, – 2022 (27 dekabr), – s. 143-149.

35. Институт необходимой обороны, предусмотренный в Уголовном кодексе Азербайджанской Республики, в контексте защиты конституционных прав и свобод // – Белград: Материалы Международной научно-практическая конференция на тему: «Традиции, уголовное и международное уголовное право». «Скрипта интернационал», 2024 (9-12 мая), – 452 с. – С. 346-359.

36. Əliyev, A.C. Suverenlik və konstitusionalizm ideyalarının Azərbaycan Respublikasının Konstitusiyasında təsbit olunması // – Bakı: AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutu. "Azərbaycan Respublikasında müasir konstitusionalizm və suverenliyə yeni baxış" mövzusunda beynəlxalq elmi konfransın materialları, – 2025, (14 oktyabr). – s. 95-100.

37. Международное уголовное право и национальное законодательство: совместимость, противоречия и проблемы применения (на примере азербайджанской республики // – Белград: Международная научно -практическая конференция на тему: «Вызовы международного уголовного права». – Белград: «Скрипта интернационал», 2025 (30 октябр - 01 ноябр), – 440 с. – С. 221-236.



Dissertasiyanın müdafiəsi " 30 " iyun 2026-cı il tarixində saat 11:00-da Milli Aviasiya Akademiyasının nəzdində fəaliyyət göstərən ED 2.45 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Milli Aviasiya Akademiyası, AZ1045, Bakı, Binə qəsəbəsi, Mərdəkan prospekti, 30

Dissertasiya ilə Milli Aviasiya Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Milli Aviasiya Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat " 26 " may 2026-cı il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 25 may 2026

Kağızın formatı: A5

Həcm: 95743 işarə

Tiraj: 100